www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11 iyul 2025-ci il Cümə № 118 (8728) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda yeni "trafik canavarları" - təhlükə böyüyür

yazısı səh.13-də

**Gündəm**

### ABŞ-ın Cənubi Qafqaza təhlükə vəd edən qayıdışı



Vaşinqtonun həm Zəngəzur, həm sülh sənədinə ciddi marağı bölgədə gərginliyi artıra bilər - hədəfdə iki region ölkəsi...

yazısı səh.5-də

### Hindistan Bakı və Ankaraya qarşı

yazısı səh.7-də

### Həftəsonu bu qruplar üzrə imtahan var

yazısı səh.3-də

### Prezidentin xarici siyasəti xalqın gözündə

yazısı səh.7-də

### Tehrandan Pezeşkianı öldürməyə çağırış

yazısı səh.4-də

### Silah buraxmaq, yoxsa yeni Kürdüstan oyunu

yazısı səh.11-də

### Ərdoğandan gözlənilməz kadr dəyişikliyi

yazısı səh.4-də

### Yekaterinburqdakı azərbaycanlılar həbsdə qaldı

yazısı səh.11-də

### Xəzərdə daha bir türkdilli ölkə bayrağı

yazısı səh.12-də

### Əhali daha çox dərmana pul xərcləyir

yazısı səh.13-də

### Yunanıstanı dostumuz etmək mümkün olacaqmı?

yazısı səh.8-də

### Faizlər artır, əhalinin borcu çoxalır - çıxış yolu

yazısı səh.15-də

# ƏBU-DABİDƏ 5 SAATLIQ TARİXİ GÖRÜŞ

Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən danışıqlarda mühüm anlaşmalar əldə olundu; sülh müqaviləsinin imzalanması istiqamətində daha bir mərhələ qət edildi; liderlərin təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə apardığı danışıqların detalları; komitə sədrindən ilginc şərh



yazısı səh.9-da

# Azərbaycanda xərçəngin qorxulu statistikası

Bir il ərzində xərçəng xəstələrinin ümumi sayı təxminən 6.4% artıb - onkoloqların rəyi...

yazısı səh.10-da




### Nazir müəllimlərin imtahanı ilə bağlı şok rəqəmlər açıqladı

yazısı səh.3-də




### İran səfirini Bakı əleyhinə kim və niyə danışdırır?

yazısı səh.4-də



### Kurenkov Moskvaya əliboş qayıdıb

yazısı səh.11-də

YENİ MÜSAVAT
N 118 (8728) 11 iyul 2025



## Telli Pənahqızı bu TV-nin rəhbəri oldu

**Tanınmış telejurnalist Telli Pənahqızına yeni vəzifə verilib. Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədr müavini, Əməkdar mədəniyyət işçisi, "Dostluq" ordenli, Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının Şura üzvü, Teleradio Akademiyasının rektoru, şairə və publisist Telli Pənahqızı Qərbi Azərbaycan Televiziyasına rəhbər təyin olunub.**

Məlumatı Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasından bildiriblər.

Telli Pənahqızı 1952-ci ildə Ermənistan SSR-in Amasiya rayonunun Aşağı Şorca kəndində dünyaya gəlib. 1980-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsini bitirib. Ədəbi fəaliyyətə 1970-ci illərin sonunda başlayıb və ilk şeirləri mətbuatda dərc olunub.

Telli Pənahqızı uzun illər Azərbaycan televiziyasında və mətbuat sahəsində çalışıb, "Azərbaycan gəncləri", "525-ci qəzet", "Ədalət", "Səs" və digər qəzetlərdə publisistik yazılarla çıxış edib. O, eyni zamanda AzTV-də müxtəlif proqramların müəllifi və aparıcısı olub, "Açıq söhbət", "Görüş yerimiz Vətən olsun" kimi ictimai-siyasi proqramlarla tanınıb.




## Ağdərədə minaya düşən şəxs ayağını itirdi

**Ağdərə rayonunun Həsənqaya kəndi ərazisində iyulun 10-da mina partlayışı baş verib.**

"Report" xəbər verir ki, bu barədə Azərbaycan Daxili İşlər Nazirliyi (DİN), Baş Prokurorluq və Minatəmizləmə Agentliyinin (ANAMA) mətbuat xidmətləri birgə məlumat yayıb.

Məlumata əsasən, 1979-cu il təvəllüdlü Quliyev Qulu Tufan oğlu minalardan təmizlənməmiş Həsənqaya kəndi ərazisində mal-qara otararkən piyada əleyhinə mina partlayışı nəticəsində sol ayağından xəsarət alıb. Onun ayağı amputasiya edilib, vəziyyəti ağır qiymətləndirilir.

## Azərbaycan millisi FIFA reytinqində 3 pillə geriləyib

**Azərbaycan millisi FIFA reytinqində 3 pillə geriləyib. "Report" qurumun mətbuat xidmətinə istinadən xəbər verir ki, Fernandu Santuşun rəhbərlik etdiyi kollektiv 119-cu pillədən 122-yə enib.**

Yığma hazırda 1148 xala malikdir.

Qeyd edək ki, siyahıya 1885 xalla son dünya çempionu Argentina yığması başçılıq edir. İspaniya (1867) ikinci, Fransa (1862) isə üçüncü pillədə yer alıb.

## Yarım ildə 6 faiz inflyasiya

**Dövlət Statistika Komitəsi bildirir ki, yanvar-iyun aylarında Azərbaycanda 8 milyard 73,5 milyon manat məbləğində (2024-cü ilin ilk yarısı ilə müqayisədə 0,5 faiz az) investisiya qeydə alınıb, neft-qaz sektoruna sərmayə 23,8 faiz azalıb, qeyri-neft/qaz sektoruna 13,5 faiz artıb.**

Hesabata görə, müəssisələr və fərdi sahibkarlar 31,2 milyard manatlıq (2024-cü ilin yanvar-iyun aylarına nəzərən 1,9 faiz az) sənaye məhsulu istehsal edib, neft-qaz sektorunda 3,1 faiz enmə, qeyri-neft/qaz sektorunda 6,3 faiz yüksəliş rəsmiləşib.

Pərakəndə ticarət şəbəkəsində alınan mallara xərclənən vəsaitin 50,5 faizinin ərzaq məhsullarının, 4,4 faizinin içkilər və tütün məmulatlarının payına düşdüyü, iyunda istehlak qiymətlərinin 2024-cü ilin eyni ayına nisbətən 6 faiz artdığı, qida məhsulları, alkoqollu içkilər və tütün məmulatlarının 7 faiz, qeyri-qida məhsullarının 2,8 faiz, ödənişli xidmətlərin 7,2 faiz bahalaşdığı xəbər verilir.

Qeyd olunur ki, yanvar-may aylarında Azərbaycanın hüquqi və fiziki şəxsləri 161 ölkədəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 103 ölkəyə ixrac, 153 ölkədən idxal sənədləşib, 2024-cü ilin eyni dövrü ilə müqayisədə idxal real ifadədə 10,3 faiz artıb, ixrac 8,8 faiz azalıb.

# Ağdama sürət qatarı ilə birgə səfər




**İyulun 10-da Prezident Administrasiyasının təşkilatçılığı ilə Ağdama birgə səfər təşkil olunub.**

Səfərdə ölkədə fəaliyyət göstərən siyasi partiyaların nümayəndələri, millət vəkilləri, politoloq və siyasi şərhçilər, həmçinin internet televiziya kanallarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlər iştirak ediblər. Bu, işğaldan azad olunan ərazilərə sayca 8-ci səfərdir. Nümayəndə heyətini Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev müşayiət edib.

Bakıdan Ağdama qatarla yola düşən səfər iştirakçıları orada aparılan quruculuq və bərpa işləri ilə də yaxından tanış olublar. Onlar birbaşa Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinə gediblər. Bu kompleks ən müasir standartlara cavab verdiyi üçün sərnişinlərin rahatlığını təmin edəcək hər şeyə sahibdir. Bundan sonra vətəndaşlar da qatarla Ağdama səfər edə biləcəklər. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin gündəlik 800-1000 sərnişinin daşınmasını təmin etmək gücündə olduğu da xüsusi vurğulanıb.

İşğal altında qaldığı illərdə Ağdam kimi xarabalığa çevrilmiş şəhərdə qısa zamanda belə böyük və strateji əhəmiyyətə malik nəqliyyat infrastrukturunun qurulması təqdirəlayiqdir. Ona görə də 30 ildən sonra həyatın qayıtdığı Ağdamın yenidən ölkənin əsas nəqliyyat qovşaqlarından birinə çevrilməsinin qürurunu yaşayırıq.

Səfər çərçivəsində Ağdam, Füzuli və Xocavənd rayonları üzrə Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov şəhərdə aparılan işlər barədə iştirakçılara geniş məlumat verib. O, Ağdamın ölkənin ən böyük dördüncü şəhəri olacağını söyləyib. Səfər iştirakçıları qısa müddət ərzində Ağdamda aparılan quruculuq işlərini yüksək qiymətləndiriblər.

Nümayəndə heyəti həm də "Böyük Qayıdış" proqramı çərçivəsində Ağdama köçmüş vətəndaşlarımızın da oradakı yaşayış və vəziyyəti ilə yerində tanış olub. İştirakçılar şəhərə qayıdan keçmiş məcburi köçkünlərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində mühüm addımların atıldığını görüblər.

Onlar belə birgə səfərlərin siyasi partiyalar arasında həmrəylik və milli birlik yaratdığını da xüsusi vurğulayıblar.

❑ **"Yeni Müsavat"**




## Qəbələyə istirahətə gedən ailədə faciə

**Qəbələyə istirahətə gedən ailə faciə ilə üzləşib.**

Moderator.az-ın məlumatına görə, hadisə rayonun Vəndam qəsəbəsində baş verib. Bakı şəhəri Qaradağ rayonu, Lökbatan qəsəbəsi sakini, 2021-ci il təvəllüdlü C.Qasımova Qəbələ rayonu, Vəndam qəsəbəsində kirayə qalmaq məqsədilə valideynləri ilə gəldiyi evin həyətində olan hovuzda boğularaq ölüb.

Faktla bağlı Qəbələ Rayon Prokurorluğunda araşdırma aparılır.

## FHN-in əməkdaşı baş katib seçildi



**İyulun 10-da Bakıda Beynəlxalq Mülki Müdafiə Təşkilatının (BMMT) Baş Assambleyasının 3-cü növbədənkənar sessiyası keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov və BMMT-yə üzv ölkələrin fövqəladə halların idarə edilməsinə məsul qurumlarının rəhbər şəxsləri iştirak ediblər.**

Bu barədə APA-ya FHN-in mətbuat xidmətindən məlumat verilib.

Təşkilatın İcraiyyə Şurasının vitse-prezidenti Vinisio Feliks Çavarria Bayez və BMMT-nin Baş katibinin səlahiyyətlərini icra edən Roman Lapin sessiyanın qarşısında duran məsələlərdən bəhs ediblər.

Daha sonra təşkilatın Etimad Komitəsinin hesabatı dinlənilib, sessiyanın gündəliyi təsdiq olunub. BMMT-nin Baş katibi vəzifəsinə namizədlərin təqdimatından sonra səsvermə keçirilib.

Səsvermənin nəticəsinə əsasən, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi Beynəlxalq əlaqələr idarəsinin rəisi polkovnik Ərgüc Kələntərli yekdilliklə Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi seçilib. Qeyd edək ki, baş katib vəzifəsinə seçkilərdə təşkilata üzv 4 ölkə - Azərbaycan, Serbiya, Burkina Faso və Tunisdən olan namizədlər mübarizə aparırdı.

Səsvermənin hesabatı dinlənildikdən sonra BMMT-nin yeni baş katibi Ərgüc Kələntərli çıxış edərək, ona göstərilən etimada görə təşəkkür edib, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səylə çalışacağını bildirib.



## Tibb işçilərinin maaşı niyə gecikib?

**Son günlər sosial şəbəkələrdə bir sıra bölgələrdə tibb işçilərinin maaşlarının verilməməsi ilə bağlı fikirlər yayılıb.**

Belə ki, Bərdə, Tərtər, Ağdam, Qəbələ, Ağcabədi rayonları, Mingəçevir və Sumqayıt şəhərlərində fəaliyyət göstərən təcili və təxirəsalınmaz tibbi yardım mərkəzlərinin əməkdaşlarına ötən ayın məvacibləri verilməyib. Bildirilib ki, eyni problem ölkənin digər şəhər və rayonlarında da mövcuddur.

Tibb işçilərinin əməkhaqlarının verilməməsinin səbəbi nədir?

Məsələ ilə bağlı TƏBİB-dən Cebheinfo.az-ın sorğusuna cavab olaraq bildirilib ki, Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzində əməkhaqqı ödənişləri mövcud qanunvericiliyə və əmək müqavilələrinin şərtlərinə uyğun olaraq növbəti ayın 10-dək həyata keçirilir: "Hazırda yeni sistemə keçidlə bağlı zəruri sənədləşmə prosesi tamamlanıb və əmək haqlarının ödənişi təmin olunub".



## Şuşadan ABŞ-a açıqca

**MTP ("Most Traveled People") klubunun səyyahı Devid Cozef Lanqan ilk dəfə Şuşa şəhərindən birbaşa İrlandiya, Kanada və ABŞ-a poçt açıqcaları göndərib.**

"Report" xəbər verir ki, bu, Şuşa şəhərinin azad edilməsindən sonra ilk beynəlxalq poçt göndərişi olub.

Bundan başqa, klubun səyyahı Rhodora Burton Leqaspi ilk dəfə Şuşadan Nyu-Yorka açıqca göndərib.

Açıqcalar şəhərin poçt şöbəsindən göndərilib.

## Gürcüstana ən çox haradan gəlirlər?

**2025-ci ilin ilk yarısında Gürcüstanı 3,2 milyon əcnəbi ziyarət edib. Novator.az-ın məlumatına görə, hesabatı yayan Milli Turizm Administrasiyası bildirir ki, ölkəyə gələnlərin 2,3 milyon nəfəri turist olub, bu baxımdan 2024-cü ilin yanvar-iyun ayları ilə müqayisədə 6,9 faiz artım qeydə alınıb.**

Ziyarətçilərin ilk beşliyində 581,1 min nəfərlə Rusiya, 533,6 min nəfərlə Türkiyə, 390,8 min nəfərlə Ermənistan, 171,3 min nəfərlə İsrail, 135,2 min nəfərlə Azərbaycan vətəndaşları göstərilir.

YENİ MÜSAVAT
N 118 (8728) 11 iyul 2025

# Nazir müəllimlərin imtahanı ilə bağlı şok rəqəmlər açıqladı

## Astarada xarici dil fənni üzrə 3 müəllimdən biri "kəsilib", bəzi rayonlarda 5 müəllimdən yalnız 1-i riyaziyyatdan sertifikasiyadan keçə bilib

**"Bu gün Azərbaycan məktəblərində rus bölmələrinin bağlanması gündəmdə deyil". Bunu elm və təhsil naziri Emin Əmrullayev "Sertifikatlaşdırma 2025: peşəkar müəllim - keyfiyyətli təhsil" mövzusunda tədbirdə çıxışı zamanı deyib.**

Nazir etiraf edib ki, bu gün ölkədəki məktəblərdə rus dili fənni üzrə müəllim çatışmazlığı var: "Şagirdin hansı bölmədə oxumasından asılı olmayaraq ana dilini yaxşı bilməsi öncəliyimizdir. Çünki şagird dövlət büdcəsi hesabına təhsil alırsa, ondan Azərbaycan dili biliyini tələb etmək haqqımız da var. Eyni zamanda müəllimlərin işə qəbulu prosesində rus bölməsi üzrə namizədlərin maksimum balı 50-60 arasıdır. Azərbaycan bölməsi üzrə isə göstərici 80-dən yuxarıdır. Buna görə də rus bölməsinə məcbur qalıb yarıbayarı nəticə göstərən müəllimi işə götürək, çünki başqası yoxdur".

Nazir müəllimlərin sertifikasiya imtihanı ilə bağlı da geniş çıxış edib. O deyib ki, növbəti il Azərbaycandakı bütün müəllimlər sertifikasiya imtahanından keçmiş olacaq. Nazir xatırladıb ki, ötən il 31 min 852 müəllim ibtidai sinif üzrə sertifikasiyadan keçib: "Ümumilikdə bu günə qədər 7 min 318 müəllim uğursuz nəticə göstərib. Biz başa düşürük ki, proses ağırdır, amma 30 suala cavab verməyən müəllimin məktəbdə tədris aparması düzgün deyil. Sertifikatlaşdırmada verilən suallar xüsusi çətin deyil. Mərhələli şəkildə müəllimlər standartlara cavab verən mütəxəssislər olmalıdır".

**O, həmçinin əlavə edib ki, 56 mindən artıq müəllimin əməkhaqqı artırılıb:** "Odur ki, bu prosesin məqsədi müəllimləri işdən çıxarmaq deyil". Onun dediyinə görə, hazırda müəllimlərin 1 faizi 34 saat dərs deyir və 2000 manat və daha artıq əməkhaqqı alır: "Bu kateqoriyaya 1399 nəfər daxildir. 11 faiz müəllim həftədə 31 saat dərs deyir və 1500-2000 manat əməkhaqqı alır. Bu qrupa 12 803 nəfər aiddir. 33 faiz müəllim həftədə 25 saat dərs deyir və 1000-1500 manat maaş alır. Bu, 39 296 müəllim deməkdir. 41 faiz müəllim həftədə 17 saat dərs deyir və 500-1000 manat əməkhaqqı alır. Bu qrupa 49 min 757 nəfər daxildir. 14 faiz müəllim isə cəmi 8 saat dərs deyir və 500 manata qədər maaş alır. Belə müəllimlərin sayı 17 min 492 nəfərdir".

E. Əmrullayev əlavə edib ki, mövcud yanaşma məktəblərdə rasionallaşdırma aparmaq, müəllimlərə daha çox dərs yükü verməklə onların yüksək maaşla çalışmasını təmin etmək məqsədi daşıyır.

**Sertifikasiya prosesində Astarada xarici dil fənni üzrə 3 müəllimdən biri ilə əmək müqaviləsinə xitam verilib. O bildirib ki, imtahanda xarici dil müəllimlərindən 12%-i uğur qazana bilib:** "Həmin fənn üzrə 1 657 müəllimin əmək müqaviləsinə xitam verilib. Misal olaraq, Astarada xarici dil fənni üzrə 3 müəllimdən biri ilə yollarımızı ayırmalı olmuşuq. Həmin şəxsləri yeni müəllimlərlə əvəz edəcəyik və inanırıq ki, gələcək nəticələr də yaxşı olacaq".

**Nazir sertifikasiya ilə bağlı ortaya çıxan digər suallarla bağlı da danışıb:** "Kimsə həyəcanlanırsa, ona ikinci şans verə bilmərik. Biz uşaq bağçası idarə etmirik. Biz müəllimlərlə işləyirik və çalışırıq ki, nəticələr yaxşı olsun. İmtahan zamanı hər şeyi müşahidə edə bilirik ki, müəllim hansı suala baxır, nə işlə məşğuldu, hansı sualda hansı cavabı seçdi və neçə dəqiqə baxdı. Biz bunların hamısını bilirik. Çətin suallar ola bilər. Azərbaycan dili və ədəbiyyat müəllimlərinin sertifikasiya imtahanı üzrə ekspertlərin apardıqları təkrar qiymətləndirmə, elmi-metodik və psixometrik təhlil nəticəsində istifadə edilən 3 sual iştirakçıların lehinə olmaqla qiymətləndirmədən çıxarılıb".

**Nazirin sözlərinə görə, dəyişiklik Azərbaycan dili üzrə 1 sual, ədəbiyyat üzrə 2 sual olub:** "22 nəfərin nəticəsi 0-29 aralığından 30-50 bal aralığına keçir. 24 nəfərin nəticəsi 30-50 aralığından 51+ aralığına keçir".

**Builki sertifikasiya prosesində riyaziyyat fənni üzrə ən yüksək nəticələr Siyəzən, Sumqayıt, Xaçmaz, Mingəçevir və İsmayıllıdan olub. Nazir bölgələr üzrə nəticələrə də toxunub:** "Riyaziyyat fənni üzrə elə bölgələr var ki, orada nəticələri zəif olan müəllimlər fəaliyyət göstərir. Belə hallarda bəzi məktəblərdə 5 müəllimdən yalnız 1-i növbəti tədris ilində riyaziyyat fənnini tədris etməyə davam edə biləcək".

**Nazir kimya fənnindən sertifikasiya imtahanında iştirak edən müəllimlərin narazılığına belə reaksiya verib:** "Biz imtahanlardan sonra testləri təhlil edirik. Bu o demək deyil ki, kimsə bərkdən qışqırsa, biz ondan qorxub imtahanı ləğv edəcəyik.



20 min müəllimi sertifikatlaşma etmişik. Onlardan 5-i imtahana telefon keçirmək istəyib. Biz telefonu alıb, onları imtahandan kənarlaşdırmışıq. Bu o demək deyil ki, sertifikatkaşma prosesi düzgün deyil. Kimya fənninə gəlincə isə, 350 nəfər yüksək bal toplayıb. Biz yavaş-yavaş test şkalalarına keçirik. Bunu zamanla hamı öyrənəcək".

E.Əmrullayev vaxtilə kolleclərdə aparılan müəllim hazırlığının mənfi nəticələrinin indi hiss edildiyini bildirib. Onun sözlərinə görə, müəllimlərin sertifikasiya imtahanlarının nəticələri vaxtilə kolleclərdə təhsil almış müəllimlərin nəticələrinin aşağı olduğunu göstərir: "Bu səbəbdən kolleclərdə müəllim hazırlığı dayandırılıb. Amma qeyd etməliyik ki, kollec məzunları arasında yüksək nəticə göstərən müəllimlər də var. Onlar illər ərzində öz üzərində çalışan və peşəkarlığını artıran şəxslərdir".

E.Əmrullayev məktəblərdə qeydə alınan neqativ hallara da toxunaraq vurğulayıb ki, bütün bu məsələlər araşdırılır və qanunvericiliyə uyğun tədbirlər görülür.

Bağçalara gəlincə, E.Əmrullayevin dediyinə görə, Bakıda uşaq bağçalarına qəbul üçün 20 minə yaxın valideyn növbə gözləyir. Nazir təəssüflə bildirib ki, burada tələb təklifi üstələyir: "Bu şəxslərlə bağça müdirləri arasında sövdələşmə ehtimalı var. Bizim bununla bağlı mütəmadi yoxlamalarımız olur".

O, həmçinin əlavə edib ki, son altı ayda 40 bağça direktoru işdən çıxarılıb, 100-dən çoxuna isə töhmət və şiddətli töhmət verilib.

**E.Əmrullayev eyni zamanda vurğulayıb ki, gələn il qrant müsabiqə ilə özəl bağçalarda təhsil alanların sayını 5 min nəfərə çatdırmaq planlaşdırılır:** "İlkin olaraq qrant müsabiqə ilə özəl bağçalarda təhsil alan uşaqların sayı 1500 nəfər idi. Buna əvvəl pilot layihə kimi başlanılmışdı. Növbəti ildə məqsədimiz bu sayı 5000 nəfərə çatdırmaqdır".

Nazir yeni tədris ilindən azad edilmiş ərazilərdə 10-a yaxın məktəbin açılmasının planlaşdırıldığını da deyib. Onun sözlərinə görə, köç prosesi ilə yanaşı, bu proses daha da sürətləndiriləcək.

❑ **"Yeni Müsavat"**

## Həftəsonu bu qruplar üzrə imtahan var

### Şəhər və rayonlarda ümumilikdə 144 imtahan binası, 2537 imtahan zalı ayrılıb

**İyulun 13-də I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə, həmçinin III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçənlər üçün coğrafiya fənni üzrə imtahan keçiriləcək.**

Bu barədə Dövlət İmtahan Mərkəzi məlumat yayıb.

İmtahanlar Bakı, Xankəndi, Naxçıvan, Gəncə, Şəmkir, Ağstafa, Qazax, Sumqayıt, Abşeron, Şamaxı, Mingəçevir, Şəki, Zaqatala, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Masallı və Xaçmazda təşkil olunacaq.

İmtahan saat 10:00-da başlanır.

İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır və bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

İmtahan keçirilən şəhər və rayonlarda, ümumilikdə 144 imtahan binası, 2537 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 144 ümumi imtahan rəhbəri, 396 imtahan rəhbəri, 3177 nəzarətçi, 460 buraxılış rejimi əməkdaşı, 144 bina nümayəndəsi cəlb olunub. I ixtisas qrupu üzrə 24059, IV ixtisas qrupu üzrə 5634, III ixtisas qrupu üzrə DT və TC altqruplarının hər ikisini seçən abituriyentlər üçün coğrafiya fənni üzrə imtahanda isə 4536 nəfər olmaqla, ümumilikdə 34229 abituriyentin iştirakı nəzərdə tutulur.

İmtahanda 58 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) abituriyent də iştirak edəcək. Onların rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli abituriyentlərin bina və zala daxil olması və hərəkəti üçün də şərait yaradılıb. Bundan əlavə, sağlamlıq imkanları məhdud iştirakçılar üçün ayrılan nəzarətçilərlə xüsusi təlim keçirilib.

Təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə iyulun 12-də təkrar baxış keçiriləcək və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə veriləcək.

YENİ MÜSAVAT
N 118 (8726) 11 iyul 2025

## Ərdoğandan gözlənilməz kadr dəyişikliyi


Fəxrəddin Altun

**Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Fəxrəddin Altun vəzifəsindən azad olunub.**

Prezident Rəcəb Tayyib Ərdoğanın digər sərəncamı ilə xarici işlər nazirinin müavini Burhanəddin Duran Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri vəzifəsinə gətirilib.

Fəxrəddin Altun isə Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun (TİHEK) sədri təyin olunub.

Burhanəddin Duran 1970-ci il yanvarın 1-də Sakaryanın Adapazarı rayonunda anadan olub. O, 1993-cü ildə Boğaziçi Universitetinin Siyasi Elmlər və Beynəlxalq Münasibətlər fakültəsini, 1993-2001-ci illərdə Bilkənd Universitetinin Siyasi Elm və Dövlət İdarəçiliyi fakültəsində magistratura və doktorantura təhsilini bitirib.

Akademik karyerasına Sakarya Universitetində elmi işçi kimi başlayıb, daha sonra dosent və professor, İstanbul Şəhər Universitetində Siyasi Elm və Beynəlxalq Əlaqələr Departamentinin müdiri vəzifələrində çalışıb.

Müxtəlif universitetlərdə çalışmış Duran 2006-cı ildə dosent, 2013-cü ildə isə professor elmi adını alıb. Duran 2013-cü ildə SETA-nın İstanbul ofisinin baş koordinatoru vəzifəsinə təyin edilib və 2014-cü ildən Ankaradakı qərargahında eyni vəzifəni davam etdirir.

Duran hazırda Ankara Sosial Elmlər Universitetinin Siyasi Elmlər Fakültəsinin müəllimidir. Duran 2018-ci ilin oktyabr ayında Prezident yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü təyin edilib. 2024-cü ilin mayından xarici işlər nazirinin müavini vəzifəsində çalışırdı.

## İran rəsmisindən Pezeşkianı öldürməyə çağırış



**Rəşt Şəhər Şurasının üzvü və sərt fundamentalist dairələrə yaxınlığı ilə tanınan Rza Aşəri İran Prezidenti Məsud Pezeşkiana qarşı təhqiramiz ifadələrlə dolu bir çağırışla gündəmə gəlib.**

"MOUZE" xəbər verir ki, Aşəri İnstagram paylaşımında İsraildən Pezeşkiana qarşı sui-qəsd etməyi istəyib. “İsrail, bir yaxşılıq edərsən? Bizim prezidentimizi - İbrahim Rəisini öldürdün. Bu yeni prezident əvvəlkindən qat-qat inqilabçıdır. Ona da yüksək şəhadət nəsib etməyini xahiş edirik”, - deyə Aşəri yazıb.

O, habelə Pezeşkianın simasına və çıxışlarına ironik və təhqiredici şəkildə toxunaraq onun “ölməyə hazır göründüyünü” bildirib.

Bu açıqlama Pezeşkianın Astara şəhərində ana dilində - türkcə etdiyi çıxışdan sonra səsləndirilib.

# İran səfirini Bakı əleyhinə kim və niyə danışdırır?

### Mehdi Sobhaninin özünü ortaya atması və başından böyük məsələlərə müdaxiləsi artıq sistematik hal alıb; sərt reaksiya: “Bu adam elə bil Əraqçinin yox, Mirzoyanın işçisidir”



**İranın Ermənistan səfiri Mehdi Sobhani növbəti dəfə Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilib. O, bu dəfə İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Xankəndi şəhərində keçirilmiş 17-ci Zirvə görüşünün yekun sənədində qəbul olunmuş Xankəndi Kommünikesini şübhə altına alıb.**

İran səfiri iddia edib ki, İran Xankəndi Kommünikesinə qeyd-şərt qoyub. İƏT Nazirlər Şurasının 51-ci sessiyasının yekununda danışıqlar nəticəsində qəbul edilmiş “Hazırkı Ermənistan ərazilərindən zorla və sistematik şəkildə didərgin salınmış azərbaycanlıların qayıdış hüququ” adlı qətnamədə və həmin sessiyanın yekun siyasi sənədi olan İstanbul Bəyannaməsində Qərbi Azərbaycan İcmasının öz yurdlarına ləyaqətli qayıdış hüququna dəstəyini ifadə edib, habelə Ermənistan tərəfindən sözügedən İcmanın hüquqlarının inkar olunmasını qınayıb. İran səfirinin yuxusunu qaçıran da məhz bu məqamdır.

“İran səfirinin Ermənistanın "Armenpress" agentliyinə verdiyi müsahibədə səsləndirdiyi fikirlər siyasi manipulyasiya və riyakarlıqdan başqa bir şey deyil". Azərbaycan XİN-in Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə belə deyib. “İran İslam Respublikasının səfirinin diqqətinə çatdırırıq ki, zirvə görüşünün nəticələrinin əks olunduğu Xankəndi Kommünikesi İƏT üzv dövlətləri ilə əvvəlcədən razılaşdırıldığı kimi, əvvəlki zirvə görüşlərinin təcrübəsinə uyğun olaraq, üzv dövlətlərlə razılaşdırılmasına ehtiyac olmadan sammitin sədrinin xülasəsi formatında tərtib edilərək təşkilatın rəsmi internet səhifəsində dərc edilib. Bu halda, İran səfirinin guya Xankəndi Kommünikesinin qəbul olunması və İran tərəfinin ona qeyd-şərt qoyması barədə iddiaları real vəziyyəti əks etdirmir. Diplomatik praktikada qeyd-şərt yalnız danışıqlar nəticəsində qəbul edilmiş qərarlara münasibətdə verilə bilər”.

Ermənistandakı İran səfirinin bu cür mövqe ilə təkcə rəsmi Tehranın deyil, həm də ölkəsinin prezidentinin səlahiyyətlərini mənimsəyərək ağlına gələni danışdığı ortadadır. İran prezideninin Xankəndi və Şuşaya səfərlərinin erməni revanşistlərə yer eləməsi təəccüblü deyil, amma Mehdi Sobhaninin özünü ortaya atması və başından böyük məsələlərə müdaxiləsi artıq sistematik hal alıb. İran səfirini Bakı əleyhinə kim danışdırır?

**Siyasi şərhçi Azər Həsrətin** “Yeni Müsavat”a bildirdiyinə görə, səfir Sobhani Bakı ilə Tehran arasında münasibətlərə əngəl olmaqdadır. Onun fikrincə, İrəvandakı iranlı diplomat ona aid olan-olmayan mövzulara “burnunu soxur”: “Hazırda iki ölkə arasında əlaqələrin normallaşması dönəmində səfir yersiz bəyanatlar verir. Əgər nəyisə izah etmək lazım gəlsəydi, İranın Azərbaycandakı səfiri bunu edərdi. Yaxud bizim İrandakı səfirimiz danışardı. Həmçinin İran prezidentinin nümayəndəsi açıqlama yayardı. Bunların heç biri olmadığı halda, İranın Ermənistandakı səfiri danışır. Halbuki onun səlahiyyətinə aid deyil”.

**A.Həsrət qeyd edib ki, Sobhaninin vəzifəsi ölkəsini Ermənistanda təmsil etmək və fəaliyyət göstərdiyi ölkədə əməkdaşlığın inkişafında rol oynamaqdır:** “Amma biz onu başqa profildə görməkdəyik. Ümumiyyətlə, o səfir bizə qarşı ilk dəfə dil uzatmır. İsrail İrana hücum edəndə də Zəngəzur barədə danışmışdı. Hərçənd yeri deyildi, İranın taleyi masa üstündəydi. Bu və ya digər şəkildə onun təxribatçı çıxışlarına çox rast gəlmişik. Belə çıxır ki, səfir ölkəsinin prezidenti Pezeşkianı saymır və ali dini rəhbərin nəzarətindədir. Faktiki isə bu, İranın idarəçiliyində ciddi parçalanmanın olması deməkdir. Çünki prezident heç nə demədiyi halda, səfir bu cür danışırsa, deməli, İranın siyasətində ikitirəlik var”. A.Həsrət əlavə edib ki, bu vəziyyət İranı yaxşı tərəfə aparmayacaq.

**Professor Qabil Hüseynli Sobhaninin özünü Ermənistanın Xarici İşlər Nazirliyinin əməkdaşı kimi apardığını söyləyib:** “Bu adam elə bil Əraqçinin yox, Mirzoyanın işçisidir. Əslində rəsmi Tehran onun çıxışlarına reaksiya verməli, münasibətlərə xələl gətirdiyini deməlidir. Təəssüf ki, Əraqçinin rəhbərlik etdiyi idarə onun bəyanatlarına susqunluq nümayiş etdirir. Ümumiyyətlə, ona Sobhanyan demək daha doğru olardı. Çünki müntəzəm olaraq Ermənistanın mövqeyini müdafiə edən bəyanatlar verir. Bu günlərdə də çərənləmişdi ki, guya Azərbaycandan İsrail dronları İran istiqamətinə yönəlib, sonra özünü təkzib etmişdi, belə bir məlumat olmadığını açıqlamışdı. Bu da bir diplomata yaraşmayan qeyri-ciddilikdir. Bir diplomat hər bir çıxışında diqqətli olmalıdır, ölkəsini təmsil edir. Sobhani isə ya əsl İranın simasını ortaya qoyur, ya da rəsmi İrəvanı təmsil edir. Bütün hallarda İran xarici işlər nazirinin Sobhaninin destruktiv çıxışlarına son qoymasını gözləyirik”.

**Q.Hüseynli bildirib ki, İranın başqa heç bir region ölkələrində olan səfirləri belə danışmırlar:** “Hətta Rusiyadakı səfirinin də Sobhani kimi danışmasını görməmişik. Belə aydın olur ki, ona İrəvanda təlimat verirlər, yaxud da fəaliyyət göstərdiyi ölkədə konyukturaya uyğun olmağa çalışır. Halbuki bu da yolverilməz haldır. Səfir İranın rəsmi mövqeyini ifadə edən şəxsdir. Ancaq onun prezident Pezeşkianın Xankəndidə necə qarşılanmasını unudub belə cəfəng fikirlər səsləndirməsi onsuz da kövrək olan Azərbaycan-İran münasibətlərini zədələyir. Cənab prezident Pezeşkiana dedi ki, "bura həm də sənin vətənindir". Yəni Məsud Pezeşkian Xankəndidə həqiqətən özünü doğma yurdunda hiss edirdi. Ancaq onun ardınca Sobhani boşboğazlığa yol verib. Biz onun xroniki xəstəliyə çevrilmiş davamlı çıxışlarına son qoyulmasını tələb etməliyik. Azərbaycan İran Xarici İşlər Nazirliyinin diqqətinə çatdırmalıdır ki, Ermənistanda olan səfiri az səsləndirsin. Onun bəyanatları münasibətlərə zərər vurmaqdadır. Bu adam hər məsələdə anti-Azərbaycan mövqeyindədir. Bəzən adama elə gəlir ki, içində bizə bir nifrət hissi var. Çünki bu qədər qərəzin bir səbəbi olmalıdır. Sobhani imkanı olsa, “artsax” deyər, ermənilərin Qarabağdan guya qovulduğunu iddia edər, yəni bir bunları deməyi qalıb”.

**Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 118 (8728) 11 iyul 2025

# ABŞ-ın Cənubi Qafqaza təhlükə vəd edən qayıdışı

## Vaşinqtonun həm Zəngəzur, həm sülh sənədinə ciddi marağı bölgədə gərginliyi artıra bilər - hədəfdə iki region ölkəsi...

**Trampın hakimiyyətə yenidən qayıdışından sonra ən çox maraq edilən mövzulardan biri də ABŞ-ın yeni administrasiyasının Cənubi Qafqaz siyasəti idi. Donald Trampın ABŞ-ın xarici siyasətində prioritetlərin dəyişməsi, xüsusilə Rusiya və İranın təsirinə qarşı mübarizə, Cənubi Qafqazda yeni dinamika yaradır.**

ABŞ dövlət katibi Mark Rubionun bir neçə dəfə Azərbaycan və Ermənistan arasında münaqişə riskinin hələ də qaldığını bildirməsi və sülhün təmin edilməsinə yönəlmiş çağırışları beynəlxalq ictimaiyyətin bölgəyə diqqətini bir daha gündəmə gətirib. Son zamanlar ABŞ hökuməti ilə Azərbaycan arasında münasibətlərdə müşahidə olunan müsbət dinamika fonunda bu bəyanatlar diqqət çəkməyə bilməz.




Rusiya da bu prosesə qıcıqlı reaksiyasını gizlətmir. Rusiya rəsmiləri bəyan edirlər ki, ABŞ və Qərb dövlətləri artıq Rusiya Federasiyasının fəal iştirakı ilə hazırlanmış nizamlanma prosesində iştirak etmək bəhanəsi ilə Cənubi Qafqazın işlərinə qarışmağa çalışırlar.

Məsələn, Putinin köməkçisi Yuri Uşakov açıqlamalarının birində "ABŞ və bir sıra digər Qərb ölkələri (Azərbaycan və Ermənistan arasında) sülh müqaviləsi üzərində işləmək prosesinə qoşulmağa çalışırlar. Biz hesab edirik ki, bütün kobud işlər Moskvada görülüb və indi qərblilər, sadəcə olaraq, danışıqlar prosesinə qoşulmaq və bununla da regional işlərə və regionun özünə qarışmaq istəyirlər" deyib.

Azərbaycan və Ermənistan arasında müharibə bitsə də, sülh danışıqları üçün 17 bəndlik razılaşma əldə olunsa da, hələlik sülh müqaviləsi bağlanmayıb. Tramp hakimiyyəti bu müqavilənin imzalanmasında da öz rolunu oynamağa çalışır. Azərbaycan isə daim vasitəsiz və birbaşa danışıqların tərəfdarı olub və bunun daha çox effektiv olduğunu hesab edir. Tramp əsasən ABŞ-ın maraqlarından çıxış edir və bu da Cənubi Qafqazda siyasi, hərbi, iqtisadi, enerji və nəqliyyat-kommunikasiya layihələrində xüsusi çəkisi olan Azərbaycanla səmimi və maraqlara əsaslanan münasibətlərin qurulmasını zəruri edir. Bayden administrasiyasının Cənubi Qafqaz və Orta Asiya ilə bağlı siyasəti iflasa uğradı. Ona görə də yeni administrasiya regiona qayıtmaqda maraqlıdır. Bu isə yalnız Cənubi Qafqazın əsas oyunçusu və Orta Asiyanın qapısı olan Azərbaycanla bərabərhüquqlu siyasət əsasında mümkündür.

ABŞ-ın Cənubi Qafqaz siyasəti əsasən gərginlik və qarşıdurmanın dərinləşməsinə yönəlib, çünki Vaşinqton üçün əsas məqsəd regionda Rusiyanın və İranın təsirinin azaldılmasıdır. Lakin bu yanaşma uzunmüddətli sülh və sabitlik gətirə bilməz. ABŞ-ın Cənubi Qafqazda dominant güc olmaq istəyi təhlükəli nəticələrə gətirib çıxara bilər. ABŞ Müdafiə Nazirliyinin Hərbi Kəşfiyyat Agentliyinin son hesabatına görə, Rusiya postsovet məkanında, xüsusilə Cənubi Qafqaz və Mərkəzi Asiyada nüfuzunu yenidən gücləndirmək istiqamətində mühüm addımlar atır. ABŞ-Azərbaycan münasibətlərinin uzun tarixinin olmasını, müstəqillik əldə etdikdən bu vaxta qədər Bakının Vaşinqtonla əlaqələr qurmasını, ötən illər ərzində Birləşmiş Ştatlarla bir çox mühüm sahələrdə sıx əməkdaşlıq edilməsini, təhlükəsizlik məsələsində, terrorla mübarizədə, enerji məsələlərində Azərbaycanın öz töhfələrini verməsini Co Bayden administrasiyasının bir növ görməzdən gəlməsinin nəticələrinin necə olduğunu heç şübhəsiz ki, Tramp administrasiyası çox yaxşı görür. Amma istənilən halda, ABŞ-ın həm Zəngəzur, həm sülh sənədinə ciddi marağı bölgədə gərginliyi artıra bilər.

**"Yeni Müsavat"a danışan Azad Vətən Partiyasının sədri Akif Nağı ABŞ-ın Rusiyanın reaksiyalarından çəkinmədiyi qənaətindədir. Partiya sədrinə görə, Birləşmiş Ştatlar hansı gücdə olduğunu özü üçün müəyyənləşdirib:** "Ona görə Vaşinqton davamlı addımlar atır. Ukrayna münaqişəsinin həlli məsələsində də Tramp özünü elə təqdim etmişdi ki, Rusiyanın yanındadır, amma sonradan bu siyasətin şahidi olmadıq. Çünki Rusiyada ciddi problemlərin olduğunu görürlər. Vaşinqton müşahidə edir ki, sanksiyalar zamanla Rusiyaya təsir edir, resursların tükənməsi gedir, hərbi sursat ehtiyatları azalır, ona görə kənar dəstək kömək edə bilməz. Hazırda Rusiyaya qarşı hibrid və partizan müharibəsi aparılır. Ukrayna onun strateji mərkəzlərini vurur və ABŞ bu nəticələri görməkdədir. O səbəbdən öz təzyiq və təsirlərini artırır. İndi də Rusiyasız sülh danışıqları sürətlənib və nəticədən asılı olmayaraq, Moskva anlayır ki, oyundankənar vəziyyətə salınıb".

**A.Nağı Zəngəzur dəhlizi məsələsinin həll olunacağına inanır, lakin Əbu-Dabidə yekun sülh sənədinin imzalanmasını gözləmir. Onun fikrincə, dəhliz dünya güclərinin marağındadır deyə onun ətrafında sərt mübarizə gedir. A. Nağı Rusiyanın bu proseslərin kənarında qaldığını düşünür:** "Birləşmiş Ştatların hərəkətləri Türkiyə və Azərbaycanla razılaşdırılır. Regionda gərginliyə gəlincə, bu, həmişə olub. İndi isə bu fürsət dəyərləndirilir və Rusiya proseslərdə iştirak edə bilmir. Yəni bölgədə vəziyyətin gərginləşməsindən narahat olmağa dəyməz".

**Vətəndaş Həmrəyliyi Partiyasının Siyasi Şurasının üzvü Asif Şəkərlinin** fikrincə, okeanın o tayında olan fövqəlgüc dövlətin bu bölgəyə müdaxiləsi istər-istəməz region ölkələri ilə rəqabətə səbəb olur, nəticədə gərginlik yaranır. Onun sözlərinə görə, bu gərginlik bölgədəki kiçik dövlətlərin işini çətinləşdirir: "Cənubi Qafqaz ölkələri sülh və sabitlik tərəfdarıdır. Amma supergüclərin region uğrunda mübarizəsi bizim kimi ölkələrin həyatına təsir edir. Nəzərə almaq lazımdır ki, Rusiya və İran əbədi qonşularımızdır, onlar bu bölgədən həmişəlik çıxıb getməyəcək. Belə bir təsəvvür nonsens görünür. Bəli, Moskva və Tehranın regionda təsir mexanizmləri zaman-zaman azala bilər, lakin Cənubi Qafqazı tamamilə itirmələri real görünmür.

Bu ayrı məsələdir ki, biz hər iki qonşumuzun bölgədəki siyasətini qəbul etmirik, maraqlarının da nədən ibarət olduğunu bilirik. Ancaq heç biri ABŞ-ın həndəvərində hər hansı siyasət aparmırlar. Sadə formada desək, Rusiya və İranın nə zamansa Birləşmiş Ştatların təsir zonasında addımlarını görməmişik. Yəni Meksika, yaxud başqa bir Amerika ölkəsi üzərindən Vaşinqtona qarşı siyasət yürüdülməyib. ABŞ isə Ermənistan üzərindən müəyyən addımlar atır, regionda təsirini artırır. Bu da sözsüz ki, bölgədə strateji rəqabəti dərinləşdirir. Rusiya və İran isə ABŞ-ın bu hərəkətlərinə susqunluqla seyrçi qalmaq fikrində deyillər. Hər bir halda, biz bölgədə sülh istəyirik və regiona kənar müdaxilələr olmadan dayanıqlı sabitlik və təhlükəsizliyin tərəfdarıyıq".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

## Konqresdə Rusiyaya qarşı üç layihə

**Konqresə təqdim edilən Qrehem-Blumental qanun layihəsi Rusiyaya qarşı layihələrdən yalnız biridir. Bu barədə politoloq Kamran Cəfərov bildirib.**

O qeyd edib ki, Konqresin gündəmində Rusiyaya qarşı eyni vaxtda 3 qanun layihəsi var: "Digər qanun layihələri: Nümayəndələr Palatasına "Sülh haqqında Qanun" (PEACE Act) adlı layihə təqdim edilib. Bu qanun sanksiya altında olan rus subyektləri ilə biznes əlaqələri quran istənilən xarici bankın ABŞ maliyyə sisteminə çıxışını bağlamağı hədəfləyir.

Bundan əlavə, REPO qanun layihəsi də mövcuddur, bu qanun ABŞ prezidentinə Birləşmiş Ştatlarda dondurulmuş Rusiya aktivlərini Ukraynanın xeyrinə müsadirə etmək hüququ verir".

Qeyd edək ki, Qrehem və Blumentalın təqdim etdikləri layihə Rusiyadan mal alıb, Ukraynaya kömək etməyən ölkələrə ABŞ-a idxal rüsumunun 500%-ə qaldırılmasını nəzərdə tutur.

## Trampdan dronla vurulmaq hədəsinə reaksiya

**ABŞ Prezidenti Donald Tramp İranın Məhkəmə-Ədliyyə Sisteminin İnsan Haqları Qərargahının keçmiş katibi Cavad Laricaninin təhdidinə kinayəli cavab verib.**

Axar.az xəbər verir ki, Amerika lideri bu barədə Ağ Evdə jurnalistin müvafiq sualını cavablayarkən deyib.

"Sonuncu dəfə təxminən 7 yaşımda günəş vannası qəbul etmişəm. Bilmirəm hədədir, yoxsa zarafat, amma günəş vannası qəbul etmirəm", - deyə o bildirib.

Xatırladaq ki, İranın Məhkəmə-Ədliyyə Sisteminin İnsan Haqları Qərargahının keçmiş katibi Cavad Laricani son televiziya çıxışında ABŞ Prezidenti Donald Trampla bağlı söyləmişdi ki, o, artıq Mar-a-Laqoda günəş vannası qəbul edə bilməz, çünki uzanmış vəziyyətdə kiçik bir dron onun qarnını nişan ala bilər.

## Tokayevdən Ağ Evə kompromis təklifi

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ABŞ-ın avqustun 1-dən etibarən ölkə mallarına 25 faiz rüsum tətbiq edəcəyi ilə bağlı bəyanatına cavab olaraq Donald Trampa məktub ünvanlayıb.**

"Teleqraf" xəbər verir ki, bu barədə prezidentin mətbuat xidməti məlumat yayıb.

Tokayev ölkəsinin konstruktiv dialoqu davam etdirməyə hazır olduğunu bildirib və ticarət məsələsində kompromis əldə olunacağına əminliyini ifadə edib.

"Qazaxıstan ABŞ-la ədalətli və proqnozlaşdırıla bilən ticarət əlaqələrinin inkişafına sadiqdir",- məktubda deyilir.

## Prezidentdən Bakıdakı tədbir iştirakçılarına müraciət

**"Müasir dünyamızda artan risklər fonunda dövrün çağırışlarına cavab verə bilən, ona uyğunlaşan, beynəlxalq həmrəylik və qarşılıqlı yardımın effektiv aləti kimi güclü Beynəlxalq Mülki Müdafiə Təşkilatının olması olduqca labüddür. Məhz bu kontekstdə, sessiya zamanı keçiriləcək baş katib vəzifəsinə seçkilər təşkilatın gələcək inkişaf istiqamətlərinin müəyyən olunmasında həlledici mərhələ olacaqdır".**

Prezident İlham Əliyev Bakıda Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyasının iştirakçılarına müraciətində belə deyib.

Dövlət başçısı bildirib ki, hazırkı sessiya bəşəriyyət üçün həlledici bir məqama - təbii və texnogen fəlakətlərin sayının artdığı, iqlim böhranlarının dərinləşdiyi, dövlətlərin yeni təhlükələr və çağırışlarla üzləşdiyi və mülki müdafiə sistemlərinin ciddi sınaqdan keçirildiyi vaxta təsadüf edir: "Bu xüsusda, mülki müdafiə və əhalinin mühafizəsi sahəsində çoxtərəfli əməkdaşlığın inkişafını təşviq edən və bu sahədə qlobal koordinasiyanı təmin edən beynəlxalq səviyyədə ixtisaslaşmış yeganə hökumətlərarası təşkilat olaraq Beynəlxalq Mülki Müdafiə Təşkilatının aparıcı və unikal rolu xüsusi əhəmiyyət kəsb edir.

Beynəlxalq Mülki Müdafiə Təşkilatı milli strukturların gücləndirilməsinə dəstək göstərir, müxtəlif inkişaf səviyyəsinə və resurslara malik ölkələr arasında təcrübə və bilik mübadiləsini asanlaşdırır, mülki müdafiə xidmətləri arasında həmrəylik və tərəfdaşlıq ruhunu möhkəmləndirir.

Əminəm ki, Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş Assambleyasının 3-cü növbədənkənar sessiyası beynəlxalq mülki müdafiə sisteminin daha da möhkəmlənməsinə və təşkilatın fəaliyyətinin təkmilləşdirilməsinə töhfə verəcəkdir".

## Roma Papasının təklifi



**İtaliya Prezidenti Sercio Mattarella Romada səfərdə olan Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb. Görüşdə iki ölkə arasında dostluq, İtaliyanın Ukraynanın müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə hərtərəfli dəstəyi ilə bağlı fikir mübadiləsi aparılıb.**

Sercio Mattarella ölkəsinin mövqeyinin tamamilə qəti olduğunu və Ukraynaya hərtərəfli dəstək olacağını bildirib.

Roma Katolik Kilsəsinin rəhbəri Papa XIV Leo isə Ukrayna Prezidentini İtaliyanın paytaxtından təxminən 25 kilometr məsafədə yerləşən Kastel Qandolfo qəsəbəsindəki iqamətgahında qəbul edib. Papa Leo Rusiya və Ukrayna nümayəndələrini danışıqlar üçün Vatikanda qarşılamağa hazır olduğunu bir daha qeyd edib. Görüşdə sülhə aparan ədalətli və davamlı yolların aktuallığı, bunun üçün də dialoqun vacibliyi vurğulanıb.

Qeyd edək ki, Volodimir Zelenski iyulun 10-11-də Romada keçiriləcək Ukraynanın Bərpası Konfransında iştirak etmək üçün İtaliyaya gəlib.

# Azərbaycan Ukraynaya dəstək üçün Romada

## Bu günə kimi Kiyevə 40 milyon dollardan artıq humanitar yardım göstərilib



**İtaliyanın paytaxtı Roma iyulun 10-11-də Ukraynanın Bərpası Konfransına ev sahibliyi edəcək. İtaliya və Ukrayna hökumətləri konfransda iştirakla bağlı 100-dək ölkəyə, onlarla beynəlxalq və maliyyə təşkilatına, 2500 şirkətə, yerli hakimiyyət orqanlarına, iki ölkənin və beynəlxalq vətəndaş cəmiyyəti birliklərinə dəvət göndərib.**

Konfransda Ukraynanın yenidən qurulması, islahatlar və modernləşdirilmə planları kimi məsələlər müzakirə olunacaq.

Ukraynanın xarici işlər naziri Andriy Sıbihanın Bakıya son səfərində Azərbaycan XİN rəhbəri deyib ki, Azərbaycan Ukraynanın Bərpası Konfransına önəm verir və bunun bərpa prosesi üçün əhəmiyyətli tədbir olduğunu düşünür: "Ona görə Azərbaycan da bu tədbirin iştirakçısı olacaq". XİN başçısı vurğulayıb ki, Azərbaycan tərəfindən Ukraynaya bu günə kimi 40 milyon dollardan artıq humanitar yardım göstərilib.

Azərbaycan xarici siyasətində iqtisadi əməkdaşlıqla yanaşı, humanitar diplomatiyaya da önəm verir. Böhranlara operativ reaksiya verməsi və infrastrukturun bərpasına töhfə verməsi onun etibarlı tərəfdaş kimi beynəlxalq mövqeyini möhkəmləndirir.

**AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramov** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın Romada keçirilən Ukraynanın Bərpası Konfransında iştirakı həm humanitar diplomatiya baxımından, həm də ölkəmizin özünün maraqları baxımından olduqca önəmlidir: "Bu günə qədər Azərbaycan və Ukrayna arasında imzalanmış bütün sənədlərdə hər iki ölkənin beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində bir-birinin suverenliyi və ərazi bütövlüyünə qarşılıqlı dəstəyi xüsusi olaraq qeyd olunub. Uzun bir dövr ərzində əraziləri işğal altında olan, suverenliyi və ərazi bütövlüyü pozulmuş, separatizmlə mübarizə aparan ölkə olaraq bu gün Ukraynanın düşdüyü vəziyyəti kifayət qədər yaxşı başa düşür və anlayırıq.

Azərbaycan olaraq bu günə qədər bütün təzyiqlərə baxmayaraq, nə Krımı, nə də Rusiyanın işğalı altında olan digər əraziləri Rusiya ərazisi olaraq tanımamağımız da həm beynəlxalq hüquq, həm də Ukraynaya dəstək baxımından xüsusi önəm daşıyır. Bəli, Azərbaycan öz xarici siyasətində balanslaşdırılmış mövqe ortaya qoyur və hər hansı məsələyə münasibətdə də ilk olaraq dövlət maraqlarından çıxış edir. Humanitar diplomatiya isə xarici siyasətimizin prioritet sahələrindən biri olmaqla bizə ölkəmizin beynəlxalq arenadakı mövqeyini daha da gücləndirmək və eləcə də əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərini inkişaf etdirmək üçün imkanlar açır. COVİD dönəmində ölkəmizin ayrı-ayrı humanitar dəstək proqramlarına töhfəsi, vaksinlərin əlçatmaz olduğu az inkişaf etmiş ölkələrə yardımların edilməsi, Pakistanda dağıdıcı daşqınlar zamanı edilən maliyyə yardımı və əhali üçün ərzaq göndərilməsi, Əfqanıstana dərman preparatları və ərzaq da daxil olmaqla, humanitar yardımların göndərilməsi, eləcə də qardaş Türkiyədə zəlzələdən əziyyət çəkən regionlara göndərilən yardımlar və infrastrukturun bərpasında iştirakımız ölkə olaraq humanitar fəaliyyətə həssaslığımızın və sadiqliyimizin göstəricisi hesab oluna bilər. Keçən dövr ərzində bu istiqamətdə Ukrayna ilə bağlı da xeyli fəaliyyət həyata keçirilib. Rusiya-Ukrayna münaqişəsi başlayandan bəri Azərbaycanın bu ölkəyə yardımları 2022-ci ildə 17 milyon, 2023-cü ildə 16 milyon, 2024-cü ildə 7 milyon ABŞ dolları olmaqla artıq 40 milyon dolları keçib. Ukraynaya dəstək özündə təkcə dərman preparatları və ərzaq göndərilməsini yox, həm də ölkənin enerji sisteminin bərpasını ehtiva edib. Bu çərçivədə elektrik kabelləri, naqillər, transformatorlar və komplekt transformator yarımstansiyalarının göndərilməsini qeyd edə bilərik. Müharibə şəraitində enerji təchizatında fasilələr yaşayan ölkə üçün bu avadanlıqların həyati əhəmiyyət daşıdığı hər kəsə məlumdur. Əminəm ki, Ukraynanın Bərpası Konfransında qəbul olunmuş razılaşmaların icrasında, istər humanitar yardımların çatdırılmasında, istərsə də gələcəkdə ölkənin infrastrukturunun bərpasında ölkəmiz də fəal şəkildə iştirak edəcək və humanitar təşəbbüslərdə mühüm oyunçulardan biri olduğunu bir daha hər kəsə sübut edəcək".

**MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə isə qeyd etdi ki, Ukraynanın yenidən qurulması üçün İtaliyada dəstək konfransına əsasən beynəlxalq hüquqa hörmət edən dost və tərəfdaş ölkələr dəvət edilib:** "Bu konfrans bir daha Rusiyanın işğalı fonunda hansı dövlətin beynəlxalq hüquqa üstünlük verdiyini də nümayiş etdirir. Azərbaycan regional və beynəlxalq müstəvidə öz mövqeyi olan, beynəlxalq hüquqa daima hörmət edən dövlətdir. Ölkəmiz humanitar missiyaların yerinə yetirilməsi və bu müstəvidə keçirilən konfranslarda daima yer alıb. Qeyd edim ki, Azərbaycan hər zaman Ukraynaya humanitar yardımlar edir. Buçada yaşayış məskənlərinin yenidən inşası, məktəb və bağçaların təmiri, elektrik avadanlıqları ilə təchiz etmə və digər humanitar missiyalarda fəal şəkildə iştirak edir. Ukrayna hər zaman digər ölkələrlə əməkdaşlıqda Azərbaycanın humanitar missiyalarını nümunə olaraq önə çəkir. Azərbaycan Prezidenti beynəlxalq təşkilatlar çərçivəsində həmişə ukraynalı həmkarı ilə görüşür, bundan sonra da humanitar yardımın göstəriləcəyini qeyd edir. Ukrayna xalqı Azərbaycan xalqının bu yardımlarını qardaş yardımı kimi qəbul edir. Romada Ukraynanın yenidən qurulması üçün təşkil olunan konfransa Azərbaycanın dəvət edilməsi ölkəmizin artan siyasi nüfuzu və etimadının göstəricisidir. Ora yalnız Ukraynanın dostları və Qərbin önəm verdiyi ölkələr dəvət edilir. Azərbaycanın Ukraynaya humanitar yardımları və bərpa prosesinə töhfəsi Qərblə strateji tərəfdaşlığını inkişaf etdirəcək. Qeyd edək ki, Birinci Qarabağ müharibəsində Ermənistan Azərbaycanın şəhərlərini və kəndlərini yer üzündən silib. Böyük humanitar böhran törədib. Amma heç bir beynəlxalq təşkilat və dövlət Ukraynanın bərpa edilməsi kimi Azərbaycan üçün belə bir konfrans təşkil etmədi. Buna baxmayaraq, Azərbaycan işğaldan və bu kimi dağıntılardan əziyyət çəkdiyi üçün bu gün qardaş Ukrayna xalqına humanitar yardımlar edir. Romada keçirilən bu konfransa ABŞ başda olmaqla, Qərb ölkələri və tərəfdaş ölkələr qatılır. ABŞ və Avropa da görür ki, Azərbaycan bu prosesdə onların yanındadır. Rusiya ilə qonşu olmaqla baxmayaraq, beynəlxalq hüquqa uyğun siyasət yürüdür. Qərb buna qiymət verməlidir. Bu gün dünyada təhlükəsizliyə təhdid riskləri böyükdür. Azərbaycan da bundan sığortalanmayıb. Ona görə də Azərbaycan daim Qərbin siyasi dəstəyini görməlidir. Ölkəmiz necə onların humanitar və siyasi platformasına dəstək verirsə, onlar da eyni addımı atmalıdır. Romada qurulan siyasi və humanitar konfrans yeni dünya siyasi nizamında kimin hansı cəbhədə olduğunu göstərir".

**Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 118 (8728) 11 iyul 2025

# Prezidentin xarici siyasəti xalqın gözündə

## Sosial Tədqiqatlar Mərkəzi əhalinin mövqeyini öyrənib; vətəndaşlar və deputat deyir ki...

**Sosial Tədqiqatlar Mərkəzi Azərbaycan Respublikası Prezidentinin fəaliyyətinə ictimai münasibətin öyrənilməsi məqsədilə ölkə vətəndaşları arasında rəy sorğusu həyata keçirib.**

Mərkəzdən verilən xəbərə görə, sorğu çərçivəsində 2025-ci ilin ilk altı ayı ərzində Prezidentin genişmiqyaslı fəaliyyət xronikasında ön plana çıxan və xüsusi aktuallıq kəsb edən bir sıra istiqamətlər seçilərək ictimai rəy sorğusu əsasında dəyərləndirilib.

Sorğunun nəticələri Prezidentin fəaliyyətinin ümumilikdə yüksək qiymətləndirildiyini göstərib. Xüsusilə "Böyük qayıdış" və bərpa-quruculuq, xarici siyasət, hərbi quruculuq və milli təhlükəsizlik sahəsində fəaliyyətə geniş ictimai dəstək ifadə olunub.

Sorğunun nəticələrinə əsasən, Prezidentin xarici siyasət sahəsində fəaliyyətini respondentlərin 67.8%-i çox yaxşı, 24.4%-i əsasən yaxşı olaraq qiymətləndirib. Sorğu iştirakçılarının 1.0%-i bu sahədə fəaliyyəti əsasən pis, 0.6%-i çox pis kimi dəyərləndirib. Respondentlərin 6.2%-i bu barədə rəy bildirməkdə çətinlik çəkib.

Nəticələr Azərbaycanın xarici siyasət kursuna - xüsusən regional əməkdaşlıq, geosiyasi balanslaşdırma və beynəlxalq təşkilatlarla əməkdaşlıq sahəsində fəaliyyətə yüksək ictimai dəstəyin olduğunu göstərib. Tədqiqat kəmiyyət metodologiyası əsasında aparılıb. Topludan nümunənin seçilməsində ehtimallı seçmənin çoxpilləli stratifikasiya üsulundan istifadə olunub. Seçmə çərçivəsi respondentlərin gender balansı, təhsil səviyyəsi və yaş bölgüsü rəsmi statistikaya uyğun olmaqla müəyyən edilib.

Sorğularda yaşı 18 və yuxarı olan 1200 respondent iştirak edib. Sorğunun sahə işi (məlumatların toplanılması) 2025-ci ilin 10-18 iyun tarixləri arasında icra edilib. Məlumatların toplanılmasında kompüter dəstəkli fərdi müsahibə (CAPI) üsulundan istifadə olunub. Sorğular Bakı, Abşeron-Xızı, Dağlıq Şirvan, Gəncə-Daşkəsən, Qazax-Tovuz, Lənkəran-Astara, Quba-Xaçmaz, Şəki-Zaqatala, Qarabağ, Mərkəzi Aran, Mil-Muğan və Şirvan-Salyan iqtisadi rayonlarını əhatə edib. Naxçıvan və Şərqi Zəngəzur iqtisadi rayonları sorğuda əhatə olunmayıb. Sorğular 7 respublika tabeli şəhər, 34 rayon olmaqla, ümumilikdə ölkənin 41 rayon və şəhərində keçirilib.

Sahə işinə başlamamışdan əvvəl intervüyerlər təlimatlandırılıb. Həmçinin onlar tərəfindən bütün müsahibələrdə anonimlik təmin edilib, respondentlərə sorğunun könüllü iştirak əsasında aparıldığı, nəticələrin yalnız tədqiqat məqsədləri üçün istifadə ediləcəyi barədə məlumatlar verilib. Sorğuda iştirak edənlərin sayına əsasən nəticələrin xəta əmsalı 95% əminlik intervalında 3% təşkil edib. Nəticələr göstərir ki, Prezidentin Azərbaycan ictimai rəyində reytinqi yüksəkdir və əhalinin böyük əksəriyyəti fəaliyyətindən razıdır.

Bəs sorğunun nəticələri həm də nədən xəbər verir? Bu, hakimiyyətin apardığı xarici siyasətin yaratdığı reallıqlardan irəli gəlirmi?




**Deputat Arzuxan Əlizadə** "Yeni Müsavat"ın sualına cavabında qeyd etdi ki, sorğunun nəticələri kifayət qədər obyektivdir və həqiqəti əks etdirir. Onun sözlərinə görə, Vətən müharibəsində əldə olunan qələbə və üç il sonra antiterror əməliyyatı nəticəsində suverenliyin bərpası sözsüz ki, xalqın Azərbaycan Prezidentinə olan müsbət münasibətini daha da artırıb.

A.Əlizadə vurğuladı ki, azad olunan ərazilərdə abadlıq-quruculuq işləri, qayıdış konsepsiyasının həyata keçirilməsi, Qarabağda hava limanları, nəhəng infrastruktur layihələrinin reallaşması uğurlarımızdır və xalq tərəfindən təqdir olunur: "Dövlət başçısının xarici siyasəti regionda və qlobal miqyasda ölkəmizin əhəmiyyətini daha da artırmaqdadır.

Həmçinin Azərbaycanın beynəlxalq təşkilatlarda iştirakı, yəni Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında və digər platformalarda oynadığı rol ölkəmizin beynəlxalq imicini xeyli dərəcədə artırıb, regionun bir nömrəli dövlətinə çevrilməsinə səbəb olub. Bu da şübhəsiz ki, Prezident İlham Əliyevin yürütdüyü siyasətin nəticəsidir.

Eyni zamanda Azərbaycanın Türk Dövlətləri Təşkilatında fəaliyyəti, Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə toplantısının keçirilməsi həm beynəlxalq aləmdə mövqeyimizi gücləndirir, həm də bu addımlar əhali tərəfindən yüksək qiymətləndirilir. Yəni rəy sorğusu reallığı əks etdirir".

**Deputat bildirdi ki ölkə daxilində də həllini gözləyən, vətəndaşları narahat edən məsələlər var və dövlət bu istiqamətdə addımlar atır:** "Ümumilikdə isə sorğu Prezidentin xarici siyasəti ilə bağlı olub və nəticələri təəccüb doğurmur. Çünki son illər diplomatik cəbhədə Azərbaycan uğurlu gedişlər edib. Xüsusən də Ermənistanla münasibətlərin tənzimlənməsi və sülh prosesində böyük məsafə qət etmişik. Bura sülh mətninin razılaşdırılması, Qazağın işğal altında olan 4 kəndinin geri alınması, həmin istiqamətdə ilk dəfə sərhədin dəqiqləşdirilməsi qeyd olunmalıdır. Bundan əlavə, rəsmi Bakının yekun sülh sənədi ilə bağlı məlum iki tələbi dəyişməyib, cənab Prezident bütün platformalarda bu prinsipial mövqeyimizi diqqətə çatdırır və İrəvanın şərtlərimizi yerinə yetirməli olduğunu vurğulayır. Bu baxımdan, əhali dövlət başçısına güvənir, milli maraqlarımızın qorunmasında ona böyük etimadı var və xalq bilir ki, prezident Azərbaycanın istəklərinə zidd hər hansı addımı atmaz. Son olaraq da Əbu-Dabidə baş tutan görüş bir daha göstərdi ki, Azərbaycan Prezidenti sülh müqaviləsinin imzalanması prosesində hansı prinsipial mövqedən çıxış etməkdədir".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Hindistan parlamenti Bakı və Ankaraya qarşı

## Nyu-Dehliyə qondarma "erməni soyqırımı"nı tanıması üçün çağırışlar edilir

**Son aylar Hindistanda Azərbaycana qarşı kampaniya başladılıb. Buna səbəb kimi Azərbaycanın məlum gərginlik fonunda Pakistana verdiyi siyasi dəstək göstərilir. Hindistan rəsmiləri ölkəmizə səfər etməməyə və Azərbaycan mallarını almamağa çağırış ediblər. Qeyd edək ki, ilin əvvəlindən Azərbaycana gələn turist sayına görə Hindistan 2-ci yerdə olub.**



Məlumdur ki, son zamanlar Hindistanla Ermənistan arasında isti münasibətlər var. Belə ki, Hindistan Ermənistanı silahla təmin edir. Hindistanın Ermənistanla yaxın əlaqələr qurmaqda əsas marağı Cənubi Qafqazın geosiyasi konyukturunda öz yerini almaqdır. Belə ki, İkinci Qarabağ müharibəsinə qədər ikitərəfli gündəmi əsasən ticarət və inkişaf məsələləri təşkil edirdisə, postmüharibə dövründə bu gündəm müdafiə sahəsində əməkdaşlıq daxil olmaqla, bir çox istiqamət üzrə aktivləşdi. Ermənistanla müttəfiq olmaqla və belə həlledici anda onu silah-sursatla təchiz etməklə Hindistan Fransa kimi regionda silahlanma yarışını gücləndirən dövlətlərin cərgəsinə qoşulub. Bu addımlar Azərbaycan tərəfindən sərt şəkildə qınanılır və regional sülhə təhdid kimi qiymətləndirilir.

Ermənilər uzun illərdir tarixdə heç zaman olmayan uydurma "soyqırımı"nı dünyanın gündəliyinə gətirərək ondan siyasi məqsədlər üçün istifadə edirlər. Qeyd etdiyimiz kimi, Ermənistan uydurma soyqırımla bağlı dünyaya çağırışlar edir, ölkələri inandırmağa çalışır. Nikol Paşinyan da bu ilin əvvəlində İsveçrədə "erməni soyqırımının" tarixdən çıxarılıb siyasətə çevrildiyini, bunun sovetlərin (və Rusiyanın) əlində bir alət olduğunu bəyan etdi.

Məlumata görə, Hindistan qondarma "erməni soyqırımı"nı tanıya bilər. Bakı-xeber.com-un xəbərinə görə, Ermənistanla Hindistan arasında artan əlaqələr fonunda Nyu-Dehliyə qondarma "erməni soyqırımı"nı tanıması üçün çağırışlar edilir. Bu barədə Hindistan jurnalı "The Week" yazıb. Maraqlıdır, Hindistan qondarma "erməni soyqırımı"nı tanıya blərmi? Ümumiyyətlə, bu, rəsmi İrəvana lazımdırmı?

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, Pakistanın Azərbaycanın strateji müttəfiqi olması Hindistanı həmişə narazı salıb və ölkəmizlə münasibətlərinə də müəyyən təsirlər göstərib:** "Ancaq təbii ki, Hindistan narazı qalır deyə Azərbaycan heç zaman qardaş Pakistan dövləti ilə müttəfiqlik münasibətlərini azaldası deyil. Münasibətlər get-gedə daha da inkişaf etdirilir. Hindistan-Pakistan qarşıdurmasında da biz əslində beynəlxalq hüquqa dəstək verdiyimizi nümayiş etdirdik. O mənada ki, beynəlxalq hüquq Kəşmirlə bağlı nəyi diktə edirsə, Azərbaycan o mövqedən çıxış edib. Ola bilsin bu, Hindistanda müəyyən dairələri narahat etdi və buna görə də Azərbaycan əleyhinə kampaniya aparmağa başladılar. Hətta hansısa Hindistan turizm şirkəti ölkə vətəndaşlarına Azərbaycana səfər etməmək çağırışı etdi. Amma bu cür çağırışın heç bir ciddi nəticəsi olmadı. Hindistandan həmişəki kimi kifayət qədər çox sayda turist Azərbaycana səfərə gəlib. Hindistan yenə də turistlərin sayına görə Azərbaycana səfər edən xarici ölkələr sırasında ikinci yerə sahibdir. Amma indi Hindistanda hansısa dairələr yenidən Azərbaycan əleyhinə təbliğata start veribsə, bu, Hindistan-Azərbaycan münasibətlərinə mənfi təsir edə bilər. Azərbaycan bunun tərəfdarı deyil. Pakistanla strateji müttəfiqliyimiz var, amma Hindistanla da Qoşulmama Hərəkatında bir yerdəyik. Azərbaycan Hindistanla münasibətlərin gərginləşməsində maraqlı deyil. Baxmayaraq ki, Azərbaycan Hindistanın Ermənistana hərbi texnika satmasından narazıdır və buna etiraz edir".

**Elxan Şahinoğlu vurğuladı ki, Hindistanın "erməni soyqırımı"nı tanıması əslində Hindistanın özünün, eləcə də Ermənistanın zərərinə işləyə bilər:** "Onsuz da indi Ermənistanın baş naziri Nikol Paşinyan belə, soyqırımı məsələsinin gündəmə gətirilməsinin əleyhinədir və Azərbaycanla danışıqlar, Türkiyə ilə əlaqələr qurulmasına cəhdlər gedir, Azərbaycanla sülh sazişi imzalanması perspektivi var. Belə bir məqamda Hindistanın "erməni soyqırımı"nı tanıması Ermənistana və şəxsən Nikol Paşinyana "ayı xidməti" olar. Ona görə hesab etmirəm ki, indiki vəziyyətdə Ermənistan dövlət səviyyəsində Hindistana "erməni soyqırımı"nı tanımaq üçün müraciət edəcək və Hindistan da bu istiqamətdə addım atacaq. Ermənistanda revanşist dairələr, Daşnaksütyun və onlara bağlı olan diaspora təşkilatları Hindistandan bunu istəyə bilərlər, lakin bu demək deyil ki, istəkləri yerinə yetiriləcək. Hindistanın dövlət maraqları, iqtisadi maraqları belə bir addımı atılmasını inkar edir".

**Politoloq Azad Məsiyev də hesab edir ki, Hindistanın Azərbaycana və Türkiyəyə soyuq münasibətində Pakistan faktorunun da təsiri mövcuddur. Ancaq təbii ki, Hindistan bundan narazı olduğu üçün Azərbaycan və Türkiyə qardaş Pakistanla əlaqələrini arxa plana keçirməz:** "Hindistanın narazı qalmasından Ermənistan, xüsusilə erməni diasporu, Hindistanla ticarət əlaqələri olan erməni iş adamları yararlanmağa həmişə çalışırlar. Son zamanlar isə onlar yaranmış vəziyyəti özlərinin planlarını həyata keçirmək üçün fürsət bilib addımlar atırlar. Məhz bu cür dairələr Hindistan mediasına təsir göstərərək "erməni soyqırımı"nın tanınması, Azərbaycana Hindistandan turistlərin getməməsi çağırışları edtirirlər. Ancaq hesab edirəm ki, bu çağırışların nəticəsi olmayacaq. Hindistan böyük dövlətdir və bu dövlət bir qrup ermənin istəyi ilə hərəkət etməz. Azərbaycanla Hindistan arasında ticarət əlaqələri yaxşı səviyyədə qalır, turistlərin sayında azalma müşahidə olunmur. Bu və digər reallıqlar onu deməyə əsas verir ki, Hindistanda ermənilərə daha yaxın dairələrin və media orqanlarının cəhdləri nəticə vermir, edilən çağırışlara dövlət səviyyəsində müsbət reaksiya yoxdur".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 118 (8728) 11 iyul 2025



# Sürücüyə pul yığan komissar

Zamin HACI
zaminhaci@gmail.com

**Ölkəmizdə qanun qarşısında hər kəs bərabərdir, hətta bəziləri, dahi klassik demişkən, "daha çox bərabərdir". Məsələn, Tolik isimli aparıcı məhbus ailələrini təhqir eləmişdi. Həmin ailələr məhkəməyə üz tutdular. Lakin məhkəmə bu şikayətə ümumiyyətlə baxmadı. Həmçinin iclas qapalı keçirilmişdir. Yəqin Tolikin nəsə hərbi sirrləri vardır. Bəlkə də o, bizim gizli silahlarımızdan biridir. Lazım olanda harasa atacaqlar, düşmən qoxudan..., üzr istəyirəm, qorxudan baş götürüb qaçacaqdır. Bunu havadan yazmıram. Tolik əvvəl müddətdən artıq xidmət keçən əsgərləri (MAXE) də təhqir eləmişdi. Gördüyümüz kimi, onun statusunda nəsə hərbi xarakterli bir şey vardır.**

Yoxsa biz ədalət məhkəməsinin qərarlarına niyə şübhə ilə yanaşmalıyıq? Belə şübhələrə əsas ola bilməz. Üstəlik, qarşıdan təntənəli bayram - jurnalistikamızın 150 illiyi gələrkən aparıcını cəzalandırmaq olardımı? Olmazdı. Bizdə jurnalistika 4-cü hakimiyyətdir. Hərçənd 1-ci ilə 4-cü arasında hansı hakimiyyətlər var, hələlik bunu bilmirik. Axtarırıq, tapan kimi sizə də xəbər verəcəyəm.

Doğrudur, Toliki məhkəməyə verənlərin bəziləri elə məhbus jurnalistlərin valideynləri idi. Ancaq hamını tutmaq da olmaz. Ən azı Tolik azadlıqda olmalıdır. Çünki camaat belə jurnalistlərə baxanda peşəmizə rəğbətlə yanaşır. Necə deyərlər, "təşəkkür edirəm, səni gördən sonra atamın mənə oğul olaraq hörməti artdı".

Ta mövzuya batmışıq, bir müşahidəmi bölüşmək istərdim. Düşünürəm əlaqədar orqanlar da bununla maraqlanmalıdır. Bu yaxınlarda xəbər lentində bir aparıcının uşağının olması yazıldı. Ancaq uşağın anası məlum deyilmiş. Qəribədir, biz uşağın adətən atasının bilinmədiyi hallarla rastlaşmışıq, indiki halda cocuğun anası naməlum idi. Olsun, ailə sirlərinə qarışmağa heç kəsin ixtiyarı yoxdur. Sadəcə, belə situasiyalarda uşağın mənşəyi, haradan, hansı üsullarla əldə edilməsi dövlət tərəfindən araşdırılsa yaxşı olar. Atalı-atalı böyüsün, amin.

Bərabərhüquqlu vətəndaşlıqdan bəhs edirdik. Həm yollarımız bərabərsürətli, özü də düz bərabərsürətli hərəkət edən maşınlarla doludur, həm də cəmiyyət bərabərhüquqlu insanlarla. Rusiyada təzəlikcə nazir intihar eləmişdi. Rus saytları yazdılar ki, nazir intihar edəndən bir gün sonra onun iclas keçirdiyi xəbəri paylaşılıb. Bu da onlara müəmmalı gəlib. Guya çox qəribə haldır. Mənim yadıma dərhal musiqi müəllimlərimizin attestasiyası düşdü. Orada bəzi müəllimlər Üzeyir Hacıbəylinin hələ də sağ olduğu cavabını verirmiş. Yaxud dəfələrlə rəhmətliklər seçkidə səs veriblər. Düzü, bu misalın bərabərhüquqluluq mövzusuna dəxli yox idi, ancaq qorxdum sonra yadımdan çıxar, yazdım getdi. Siz də dəxli varmış kimi oxuyun, nə olasıdı, hamımız bir-birimizi yola verməliyik. Hamımız azərbaycanlıyıq.

Naxçıvanda yerli Səfərbərlik və Hərbi Çağırış Dövlət Xidmətinin keçmiş rəisi Mirzə Cəlilova cinayət işi açılıb. Mirzə müəllim rəsi işlədiyi 3 ildə 2 milyon 464 min manat rüşvət alıb, xeyli gəncin əsgərlikdən yayınmasına yardım edib. İki milyon yarımı adambaşına bölsək, belə çıxır Mirzə müəllimin əməyi sayəsində 3 il Naxçıvandan ümumiyyətlə əsgər gedən olmayıb. Naxçıvanlı klassikin əsərindəki kimi: "Bizdə oğlan uşağı yoxdur, ağa naçənnik". Ancaq diqqətimi çəkən bu deyil. Mirzə müəllim müstəntiqə deyib ki, yığdığı pulları Vasif Talıbovun oğlunun sürücüsünə təhvil verib.

Nə gözəl... Baş vayenkom pulu toplayıb adi sürücüyə verirmiş. Sonra bəziləri mırıldanır ki, guya ölkəmizdə korrupsiya ilə yalnız məmurlar, dövlət qulluqçuları məşğul olur. Elə deyil. Hamıya qazanmağa imkan verilir. Sürücülər də alır, nazirlər də. Hətta elə cangüdən var, nazirdən qat-qat hörmətlidir. Bu isə ölkəmizdə sadə peşə sahiblərinin əməyinə qoyulan qiyməti xarakterizə edir.



# Yunanıstanı Azərbaycanın dostu etmək mümkün olacaqmı?

## Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsinin Afina səfərinin yekunlarına olan ümidlər - rəy

**Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun Yunanıstana rəsmi səfəri ölkələr arasında ikitərəfli münasibətlərdə yeni mərhələnin başlanğıcını qoyub.**

Səfər çərçivəsində Əmirbəyov Yunanıstanın yüksək rütbəli rəsmiləri ilə bir sıra mühüm görüşlər keçirib. Onların arasında Yunanıstan xarici işlər nazirinin müavini Aleksandra Papadopulu və baş nazirin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Thanos Dokos da olub. Hakim Yeni Demokratiya Partiyasından olan deputat, Yunanıstan parlamentinin Milli Müdafiə və Beynəlxalq Əlaqələr Daimi Komitəsinin üzvü Sofiya Vultepsi ilə də görüş keçirilib. Bundan əlavə, azərbaycanlı diplomat Yunanıstan Avropa və Xarici Siyasət Fondunun (ELİAMEP) nümayəndələri ilə danışıqlar aparıb.

Papadopulu və Dokosla danışıqlarda əsas mövzular ikitərəfli münasibətlər, Azərbaycan Avropa İttifaqı ilə əlaqələri və Ermənistanla Azərbaycan arasında davam edən münasibətlərin normallaşması prosesi olub.

Elçin Əmirbəyov həmçinin Yunanıstanın nüfuzlu "To Vima" qəzetinə müsahibə verib və bu müsahibədə siyasi dialoqun, o cümlədən 2024-cü ilin martında keçirilmiş ikitərəfli siyasi məsləhətləşmələrin bərpasından məmnunluğunu ifadə edib.

Müsahibədə iki ölkənin "xarici təsirlərdən azad" əlaqələri inkişaf etdirməyə dair razılaşmasına xüsusi diqqət yetirilib. Əmirbəyov açıq şəkildə bildirib ki, Ermənistan Yunanıstan-Azərbaycan münasibətlərinin hazırkı durumu ilə çətin ki, qane olsun: "Bir ölkənin digər ölkə ilə əla münasibətləri onun üçüncü ölkə ilə eyni münasibətlərə malik olmasına mane olmur".

Onun sözlərinə görə, ölkənin həm Ermənistan, həm də Azərbaycanla eyni vaxtda yaxşı münasibətlər saxlaya bilməsi fikri Yunanıstanda getdikcə daha çox qəbul edilir.

Azərbaycanın energetika nazirinin müavini Orxan Zeynalov da Afinada olub və Yunanıstanın xarici işlər nazirinin iqtisadi diplomatiya üzrə müavini Haris Teoharislə görüşüb. Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, tərəflər iqtisadi əməkdaşlığın genişləndirilməsi imkanlarını müzakirə ediblər, enerji sektorunda əməkdaşlığın strateji əhəmiyyətini vurğulayıblar və bərpa olunan enerji mənbələri sahəsində təşəbbüslərin daha da inkişaf etdirilməsində qarşılıqlı maraqlı olduqlarını bildiriblər.

Yunanıstanı Azərbaycanın dostu etmək mümkün olacaqmı?

**Siyasi şərhçi Əli Orucov** "Yeni Müsavat"a bildirdi ki, Yunanıstan Azərbaycanın dövlət müstəqilliyini tanıyan və diplomatik münasibətlər quran ilk ölkələrdən biri olsa da, Afina ilə daha çox iqtisadi, ticari və enerji sahələrində sıx əməkdaşlıq edilir: "Yunanıstan Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, Avropa İttifaqı, Avropa İttifaqının yeni qonşuluq siyasəti proqramı və NATO-nun fərdi tərəfdaşlığın fəaliyyət planı çərçivəsində də Azərbaycanla əlaqələrə malikdir. Afina Azərbaycanın yaşıl enerji sahəsində qarşıya qoyduğu səmərəli və ambisiyalı hədəflərindən də yararlanmaq istəyir. Eyni zaman nəqliyyat-logistika, informasiya kommunikasiya və yeni texnologiyalar, həmçinin mədəni sahələr üzrə də əməkdaşlıqda maraqlıdır. Azərbaycan təbii qazının Avropa bazarlarına çıxarılmasında da Yunanıstanın rolu var. Lakin bütün bunlara baxmayaraq, Azərbaycanla Yunanıstan arasında siyasi münasibətlərin çox yüksək səviyyədə olmasını demək bir qədər çətindir".

**Əli Orucov dedi ki, bunun səbəblərindən biri Türkiyə-Azərbaycan qardaşlıq münasibətləri, biri Azərbaycanın Şimali Kipr Türk Cümhuriyyətinə dəstəyi faktorudur. Eyni zamanda Yunanıstanın da Ermənistana dəstək verməsi zaman-zaman Azərbaycanı narazı salıb və salır:** "Afina Ankara ilə zaman-zaman gərginlik içərsində olub. Hətta bu gərginliklər siyasi böhranadək inkişaf edib. Ankara ilə Afina arasında ərazi suları və adalarla bağlı mübahisələr var. Azərbaycanla Yunanıstanı Kipr məsələsində əks mövqelər ayırır. Afina Kipri bütöv bir ölkə kimi tanıyır və dəstək verir. Oradakı türklərin fikrinə önəm vermir. Şimali Kipr Türk Cümhuriyyətinə beynəlxalq tanınmada ən böyük maneə kimi çıxış edir. BMT-nin sabiq baş katibi Kofi Annandın Kiprlə bağlı planı da məhz Afinanın fəaliyyəti nəticəsində rədd edildi. Yunanıstan hər vəchlə çalışır ki, bütün platformalarda adadakı türklərin maraqlarına əngəl törətsin. Təəssüf ki, buna da nail ola bilir. Bir müddət əvvəl Türk Dövlətləri Təşkilatında təmsil olunan türk dövlətlərinin bəzilərinin Kiprin yunan kəsimində səfirlik açmalarının təşəbbüskarı da məhz Afina olmuşdur. Şimali Kipr Türk Cümhuriyyəti ilə bağlı Azərbaycanın qəti və prinsipial mövqeyi heç də Yunanıstanın ürəyincə deyil. Həmçinin Türkiyə-Azərbaycan əlaqələrinin ən üst səviyyədə olması və qardaşlığın daha da dərinləşməsi Afinanı narazı salmaya bilməz".

Ekspertin sözlərinə görə, bütün bunları təhlil edərkən bir daha aydın olur ki, Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun Yunanıstana etdiyi işgüzar səfəri və keçirdiyi görüşlər hər iki ölkə arasında mövcud olan fundamental məsələləri tam həll edə bilməsə də iqtisadi, ticari və digər sahələrdə əməkdaşlığa müsbət impuls verər. Bunun üçün böyük potensial və geniş imkanlar var.

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"



# Türkiyə ordusunda dəyişikliklər

**Türkiyədə Xüsusi Qüvvələr Komandanlığına təyin olunan quru qoşunları və hərbi dəniz qüvvələrinin generallarının yaş həddi 67-yə qaldırılacaq. "Sözcü" xəbər verir ki, qanunda ediləcək dəyişikliyə əsasən, Türkiyə Prezidenti bu generalların xidmətdə olma müddətini artıra biləcək. Prezidentə veriləcək yeni səlahiyyətlə o, ordunun general və admirallarının xidmətdə olma vaxtını hər dəfə 1 il müddətə olmaqla 72 yaşa kimi artıra biləcək.**

Bu müddəanın qüvvəyə mindiyi tarixdən general-mayor, kontr-admiral, briqada generalı rütbələrinə malik şəxslərin general-leytenant və ya vitse-admiral rütbəsinə yüksəldilməsi üçün müvafiq komanda-qərargah hazırlığı kurslarından keçməsi də tələb olunmayacaq. Belə ki, hərbi akademiyaları müvəffəqiyyətlə bitirən şəxsi heyət üzvləri komanda-qərargah hazırlığını başa vurmuş hesab ediləcək.

YENİ MÜSAVAT
N 118 (8528) 11 iyul 2025



# Əbu-Dabidə 5 saatlıq tarixi görüş

## Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən danışıqlarda mühüm anlaşmalar əldə olundu; sülh müqaviləsinin imzalanması istiqamətində daha bir mərhələ qət edildi; liderlərin təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə apardığı danışıqların detalları

**İyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş keçirilib. Sülh razılaşmasının əldə olunması istiqamətində reallaşan bu tarixi görüş 5 saat çəkib və ilkin məlumatlar kifayət qədər ümidvericidir.**

Görüşdə Azərbaycan tərəfdən Prezidentin köməkçisi Hikmət Hacıyev, xarici işlər naziri Ceyhun Bayramov, Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov və baş nazirin müavini Şahin Mustafayev, Ermənistan tərəfdən Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan, xarici işlər naziri Ararat Mirzoyan, baş nazirin müavini Mqer Qriqoryan və parlament sədrinin müavini Ruben Rubinyan iştirak ediblər.

"Report"un Əbu-Dabiyə ezam olunmuş əməkdaşının verdiyi xəbərə əsasən, Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin vacib istiqamətləri - sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizinin açılması və inkişafı, sülh müqaviləsinin paraflanması və digər məsələlərlə bağlı çox ciddi və substansiv müzakirələr aparılıb. Bu təmasların və danışıqların istər müxtəlif işçi qrupları səviyyəsində, eyni zamanda daha yüksək səviyyələrdə davam etdirilməsi barədə ümumi razılıq əldə edilib.

Əldə olunan önəmli razılaşmalardan biri budur ki, Azərbaycan və Ermənistan arasında delimitasiya istiqamətində işlər davam etdiriləcək. Qeyd edilib ki, sərhədin delimitasiyası prosesi ilə bağlı əldə olunmuş nailiyyətləri dəyərləndirən liderlər bu istiqamətdə əməli işlərin davam etdirilməsi üçün müvafiq dövlət komissiyalarına tapşırıqlar veriblər.

"Caliber"in əldə etdiyi məlumata görə, fikir və təklif mübadiləsi nəticəsində həm maraqların üst-üstə düşdüyü məqamlar, həm də hələ də mövcud olan fikir ayrılıqları müəyyənləşib. Nəticədə texniki səviyyədə - ixtisaslaşmış işçi qruplar vasitəsilə, eləcə də yüksək siyasi səviyyədə təmasların davam etdirilməsi barədə ümumi razılıq əldə olunub. Bu isə danışıqlar prosesində yeni mərhələyə keçidin baş verdiyini göstərir.

Ermənistan xarici işlər nazirinin müavini Mnatsakan Safaryan regional kommunikasiyaların blokdan çıxarılması funksiyalarının beynəlxalq təşkilatlara verilməsi variantına münasibət bildirib. Nazir müavini "AzadlıqRadiosu"nun erməni xidmətinə bildirib ki, bu variant Ermənistanın bəyan etdiyi prinsiplərə tam uyğun gələrsə, həyata keçirilə bilər. Safaryan yola nəzarəti başqa təşkilatın həyata keçirə bilməsi məsələsinə də aydınlıq gətirib. Onun sözlərinə görə, burada "nəzarət" sözü yanlış ifadədir. "Bir daha təkrar edirəm: bu proses Ermənistanın suverenliyi, yurisdiksiyası və ərazi bütövlüyü çərçivəsində həyata keçirilməlidir. Əgər bu prinsiplərə uyğundursa, bəli, həyata keçirilə bilər. Bu müzakirə mövzusudur, qarşılıqlılıq təmin edilməlidir", - deyə Mnatsakan Safaryan qeyd edib.

Qeyd edək ki, bundan öncə Zəngəzur dəhlizinə ABŞ şirkətinin nəzarət edəcəyinə dair iddialar yayılmışdı.

Paşinyana yaxın erməni mediası xəbər verir ki, Əbu-Dabidə keçirilən Azərbaycan-Ermənistan danışıqları müsbət və hətta uğurlu qiymətləndirilir. Erməni mediasına görə, görüş zamanı məhsuldar müzakirələr aparılıb, gündəlikdəki bütün məsələlər ətraflı şəkildə nəzərdən keçirilib. Tərəflər mövqelərini xeyli dərəcədə yaxınlaşdırmağa nail olublar.

Azərbaycan və Ermənistan XİN görüşdən sonra bəyanat yayıb. Hər iki bəyanatda bildirilib ki, görüş zamanı dövlətlərarası münasibətlərin normallaşdırılması üçün gündəliyin müxtəlif aspektləri müzakirə olunub. İkitərəfli danışıqların normallaşma prosesi ilə bağlı bütün məsələlərin müzakirəsi üçün ən səmərəli format olduğu təsdiqlənib və bu əsasda belə nəticəyönümlü dialoqun davam etdirilməsi qərara alınıb.

**Bəyanatlarda deyilir ki, sərhədin delimitasiyası prosesində irəliləyişlərin olduğunu qeyd edən ölkə rəhbərləri bu istiqamətdə əməli işlərin davam etdirilməsi ilə bağlı müvafiq dövlət komissiyalarına tapşırıqlar veriblər:** "Tərəflər həmçinin iki ölkə arasında ikitərəfli danışıqların və etimadın möhkəmləndirilməsi tədbirlərinin davam etdirilməsi barədə razılığa gəliblər".

Əbu-Dabi görüşünə beynəlxalq reaksiyalar da var.

"Avropa İttifaqı bu gün hər iki tərəfin elan etdiyi kimi, iyulun 10-da Əbu-Dabidə Ermənistan və Azərbaycan liderləri arasında keçirilən görüşü alqışlayır". Bu fikirləri bizim.media-ya açıqlamasında Aİ-nin Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə sözçüsü Anitta Hipper deyib.

**Hipper normallaşma prosesində atılan bütün addımların Aİ tərəfindən dəstəkləndiyini bildirib.** "Avropa İttifaqı iki ölkə arasında normallaşma prosesini güclü şəkildə dəstəkləyir. Daha əvvəl qeyd edildiyi kimi, biz 2025-ci ilin martında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsi üzrə danışıqların yekunlaşdırılmasını alqışladıq. Bu, regionda davamlı sülh və təhlükəsizliyin təmin edilməsi istiqamətində mühüm addımdır", - deyə A.Hipper əlavə edib.

"Rusiya Bakı ilə İrəvan arasında sülh sazişinin bağlanması üçün təmasları alqışlayır". Bunu isə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib. Peskovun sözlərinə görə, Moskva dialoq faktını təqdir edir: "Biz, əlbəttə ki, belə bir birbaşa dialoq faktını alqışlayırıq və müxtəlif səviyyələrdə dəfələrlə demişik ki, sülh müqaviləsinin mümkün qədər tez imzalanmasını alqışlayacağıq. Məhz belə bir sazişin imzalanması regionda proqnozlaşdırıla bilən, sabitlik və sülh əlavə edəcək çox mühüm amilə çevriləcək. Biz bu prosesi tam dəstəkləyirik".

Qeyd edək ki, görüşdən öncə ABŞ dövlət katibi və Dövlət Departamentindən də dəstək açıqlamaları gəlib.

**Deputat, Milli Məclisin Müdafiə, təhlükəsizlik, korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, danışıqlar prosesində əsas məqam vasitəçi olmadan ikitərəfli formatın davam etdirilməsi barədə razılaşmadır: "Hazırda bir çox ölkələr bu danışıqlarda vasitəçilik rolunda çıxış etmək uğrunda çalışırlar. Eyni zamanda sərhədlərin delimitasiya və demarkasiya məsələsi də davam etdiriləcək. Təbii ki, Azərbaycan üçün əsas maraq doğuran məsələ sülh müqaviləsinin imzalanması və regionda davamlı sülhün bərqərar olmasıdır. Azərbaycan tərəfi bu istiqamətdə bir sıra məsələləri gündəmə gətirib və konkret tələblər irəli sürüb. Bu gün baş tutacaq görüşdə də yalnız deklarativ bəyanatlarla kifayətlənmədilər, artıq imzalanması mümkün olan müqavilənin detalları və onların reallaşdırılması məsələləri əsas müzakirə mövzusu oldu. Hazırda Ermənistan Konstitusiyasında ediləcək dəyişikliklər, eyni zamanda Avropa İttifaqının müşahidəçilərinin sərhəddə apardığı fəaliyyətin dayandırılması və ATƏT-in Minsk Qrupunun ləğv olunması məsələləri əsas prioritetlər sırasındadır. Bu üç məsələyə Ermənistan aydınlıq gətirməlidir və bu proseslər öz həllini tapmalıdır". **A.Nağıyev qeyd etdi ki, bundan əlavə, əsas problemlərdən biri Zəngəzur dəhlizinin açılmasıdır:** "Həmçinin dəhlizin açılması ilə bağlı Rusiya, İran və digər dövlətlərin mövqeləri də hələ tam aydın deyil. Azərbaycanın isə mövqeyi birmənalıdır: Zəngəzur dəhlizi açılmalıdır! Son zamanlar ABŞ-ın bu dəhlizə nəzarət edə biləcəyi ilə bağlı bəyanatlar səslənib. Bu kimi məsələlərə də aydınlıq gətirilməlidir. Eyni zamanda Ermənistan Konstitusiyasında ediləcək dəyişikliklərin necə həyata keçiriləcəyi, Ermənistan vətəndaşlarının və seçicilərinin bu proseslərə münasibəti, Türkiyənin və digər regional və beynəlxalq aktorların bu məsələlərdə rolu, Orta Dəhlizin region və beynəlxalq səviyyədə əhəmiyyəti və digər məsələlər müzakirə mövzusu oldu. Hesab edirəm ki, iki lider arasında son vaxtlar yaranmış gərginliklərə də bu görüş zamanı aydınlıq gətirmək imkanı yaranıb".

Beləliklə, Ermənistanın da artıq etiraf etdiyi kimi, Azərbaycanın israrı nəticəsində ikitərəfli formatda reallaşan Əbu-Dabi görüşü sülh müqaviləsinin razılaşdırılması istiqamətində çox mühüm mərhələ oldu. Rəsmi Bakının ötən ildən başlayaraq həm sərhədlərin delimitasiyası və demarkasiyası, həm də işğal altındakı kəndlərimizin 4-ünün azad olunması ilə nəticələnən vasitəçilərsiz danışıqlar formatı hər iki tərəfi qane edir və sülh imkanlarını artırır. Bu mənada BƏƏ danışıqları sülhün əldə olunması baxımından çox mühüm dönüşə səbəb olacaq, əgər təxribatçı qüvvələr yenidən dövriyyəyə girib, Ermənistanı qeyri-konstruktiv mövqeyə sürükləməsələr...

❑ **Elşad PAŞASOY, "Yeni Müsavat"**



## Tüpürcək testi ilə xərçəng erkən aşkarlanacaq

**Amerikalı alimlər demensiya, xərçəng və 2-ci tip şəkərli diabetin erkən mərhələdə diaqnozunu mümkün edən yeni bir tüpürcək analizi hazırlayıblar. Tədqiqatçılar bu üsulu təhlükəli xəstəliklərin vaxtında aşkarlanması baxımından "müqəddəs metod" adlandırırlar.**

"Medicina" xəbər verir ki, Kaliforniya Universitetinin alimləri insan tüpürcəyində müxtəlif xəstəliklərin biomarkeri sayılan bəzi molekulların olduğunu aşkar ediblər. Maraqlıdır ki, bu molekullar əvvəllər yalnız qanda izlənilə bilirdi. Yeni test vasitəsilə Alzheimer xəstəliyi, başqa demensiya formaları, xərçəng növləri, 2-ci tip diabet və hətta autoimmun xəstəliklər erkən mərhələdə müəyyən edilə bilər.

Tədqiqat çərçivəsində alimlər indiyədək aparılmış ən əhatəli tüpürcək molekulyar analizini həyata keçiriblər. Onlar müəyyən markerlərin xəstəliyin başlanğıcında belə tüpürcəkdə aşkarlandığını sübut ediblər.

Testlərin yaxın gələcəkdə diş həkimləri tərəfindən rutin şəkildə tətbiq olunacağı gözlənilir. Bu isə erkən diaqnostikada əsl inqilab ola bilər - çünki bir çox ölümcül xəstəlik daha ilkin mərhələdə aşkarlanacaq və müalicə şansı artacaq.

Alimlərin fikrincə, yaxın gələcəkdə bu analizi aparmaq üçün portativ cihazlar da hazırlanacaq. Belə texnologiya sayəsində insanlar evdə belə xəstəlik risklərini vaxtında müəyyən edə biləcəklər.

## Demensiyadan qorunmağın 8 yolu

**Bəzi insanlar yaşlandıqca demensiya xəstəliyinə daha çox meyilli olurlar. Demensiyanın ilkin əlamətlərini gündəlik həyatda müşahidə etmək mümkündür. Bunlara yaddaş pozuntuları, diqqəti cəmləməkdə çətinlik, sadə tapşırıqları yerinə yetirməkdə problem, söhbəti izləməkdə və ya düzgün söz tapmaqda çətinlik, əhval-ruhiyyənin qəfil dəyişməsi, yersiz zarafatlar, zaman və məkan anlayışında çaşqınlıq daxildir.**

Həkimlər xəbərdarlıq edirlər ki, bu simptomların yalnız bir neçəsi müşahidə olunsa belə, vaxt itirmədən mütəxəssisə müraciət etmək vacibdir.

Amerika Nevrologiya Akademiyasının son araşdırmasına əsasən, demensiyanın qarşısını almaq üçün aşağıdakı həyat tərzi tövsiyə olunur:

- Fiziki cəhətdən aktiv qalmaq
- Sağlam və balanslı qidalanmaq
- Artıq çəkidən azad olmaq
- Siqaretdən uzaq durmaq
- Qan təzyiqinə nəzarət etmək
- Xolesterin səviyyəsini izləmək
- Qan şəkərini normada saxlamaq
- Gündəlik idmanla məşğul olmaq

# Azərbaycanda xərçəngin qorxulu statistikası

## Bir il ərzində xərçəng xəstələrinin ümumi sayı təxminən 6.4% artıb - onkoloqların rəyi...



**Ötən il Azərbaycanda 73 875 nəfər xərçəng xəstəsi kimi qeydiyyata alınıb. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2024-cü ildə tibb müəssisələrində bədxassəli şiş diaqnozu ilə qeydiyyatda olan xəstələrin sayı 73 875 nəfər təşkil edib. Onlardan 28 098 nəfəri kişi, 45 777 nəfəri isə qadındır. Onu da qeyd edək ki, bu rəqəm 2022-ci illə müqayisədə 7 min 50 nəfər çox olub.**

2023-cü ildə isə qeydiyyatda olan xərçəng xəstələrinin sayı 69 435 nəfər idi. O zaman onların 25 840 nəfəri kişi, 43 595 nəfəri isə qadın olmuşdu. Beləliklə, bir il ərzində xərçəng xəstələrinin ümumi sayı təxminən 6.4% artıb. Xüsusilə qadınlar arasında artım daha nəzərəçarpandır.

Bəs bu artımın səbəbi nədir? Qadınlar arasında xərçəngin daha çox yayılmasına nə təsir edir? Müvafiq qurumlar bu artımı araşdırırlarmı?

Hələlik rəsmi qurumlardan səbəblərlə bağlı ətraflı məlumat verilməsə də, mütəxəssislər bu tendensiyanı müxtəlif amillərlə izah edirlər. Buraya ətraf mühitin çirklənməsi, həyat tərzi, qidalanma vərdişləri, genetik meyllilik və müayinələrə çıxış imkanlarının yaxşılaşması kimi faktorlar daxildir.

Xüsusilə qadınlarda süd vəzi, qalxanabənzər vəzi və ginekoloji orqanlarla bağlı xərçəng növlərinin çoxluğu diqqət çəkir və bunun üçün profilaktik müayinələrin əhəmiyyəti dəfələrlə vurğulanır.

Hazırda Səhiyyə Nazirliyi və digər aidiyyəti qurumlar vəziyyəti nəzarətdə saxlamaq və səbəbləri müəyyənləşdirmək məqsədilə tədqiqatlar aparır.

**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, onkoloq Azad Kərimli** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, qadınlarda bu xəstəlik ən çox süd vəzində və uşaqlıq boynunda aşkarlanır: "Bu mövzuda maarifləndirmə işləri mütəmadi şəkildə davam etməlidir. Bu xəstəliklə əlaqəli bütün cəmiyyət, ölkə mübarizə aparmalıdır. Onkoloqlar təkbaşına bu yükün altına girə bilməz. Xəstəlik vaxtında aşkar olunanda müalicə etmək mümkündür. İnsanlar özünü qorxutmasın, sadəcə olaraq, vaxtında həkimə müraciət etsinlər və müayinə olunsunlar. Bəzən isə insanlar doğru ünvana, mütəxəssisə müraciət etmirlər. Qadınlar ildə 1 dəfə mamoqrafiya müayinəsindən keçsinlər. Dünya ölkələri ilə müqayisədə Azərbaycanda xərçəng xəstələrinin sayı çox deyil. Məsələn, Krımda 10 il əvvəl 2 milyon əhalinin 50 mini xərçəng xəstəsi idi. Çeçenistanda isə 1 milyon əhalinin 20 minində onkoloji xəstəlik aşkarlanıb. Azərbaycanda isə 10 milyonluq əhalinin 75 minində bu xəstəlik var. Demoqrafik göstəriciləri nəzərə almaq lazımdır. Xərçəngin yaranmasına bir çox faktor: qidalanma, ekologiya, həyat tərzi, stress, tütün çəkmə və s. təsir edir. Xərçəng müalicə olunan xəstəlikdir, yetər ki, həkimə vaxtında müraciət edilsin".

**Onkoloq, tibb üzrə fəlsəfə doktoru Fərid Museyibov deyib ki, tək Azərbaycanda deyil, bütün dünyada xərçəng xəstələrinin sayı artır:** "Bu xəstəliyin yaranmasına ilk növbədə qidalanma faktoru təsir edir. Zərərli vərdişlərin də öz rolu var. Son zamanlar artıq çəkinin olması da xərçəng xəstəliyini yaradır. Siqaret və tütün məhsullarından istifadə olunması, stress faktorunun olması, havanın çirkliliyi, şüallanmanın həddindən çoxluğu onkoloji xəstəliklərin meydana gəlməsinə gətirib çıxaran əsas səbəblərdən biridir. Genetik faktoru da unutmaq olmaz.

Xərçəng xəstəliyini birinci və ikinci mərhələdə olanda müalicə etmək mümkündür. Lakin çox təəssüflər olsun ki, pasiyentlər 3-cü və 4-cü mərhələdə gəlirlər deyə biz onlara kömək edə bilmirik. İldə bir dəfə müayinədən keçmək əsas şərtdir. Xəstəlik nə qədər çox erkən aşkarlanarsa, bir o qədər də müalicə baxımından sağalma şansı var. Xəstəlik erkən aşkarlanarsa, dərmana görə pasiyentin xərci də çox çıxmaz".

**Həkim bildirir ki, bəzən biopsiyanın cavabı yanlış olur**: "Bizim bir pasiyentimiz var idi, onda biopsiyanın cavabı yanlış çıxmışdı. Ona görə də məsləhətdir ki, 2-3 dəfə biopsiya edilsin, əgər nəticələr üst-üstə düşərsə, o zaman diaqnoz qoyulsun. Belə yanlış diaqnozlara da rast gəlirik. Ona görə də pasiyentlər digər sahə həkimlərinə yox, onkoloqlara müraciət etsinlər".

**Onkoloq ölkəmizdə xərçəng əleyhinə satılan dərmanlardan da söz açıb:** "Xaricdə istehsal olunan dərmanlardan ölkəmizə gətirilir. Keyfiyyəti normaldır. Əsas məsələ müalicənin düzgün aparılmasıdır".

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, 2022-ci ildə dünyada təxminən 20 milyon yeni xərçəngə tutulma qeydə alınıb, 9,7 milyon insan xərçəngdən dünyasını dəyişib. Hesabata görə, hər beş insandan biri həyatında xərçəngə tutulur, hər doqquz kişidən, hər on iki qadından biri bu xəstəlikdən vəfat edir.

Təşkilatın proqnozlarına görə, 2050-ci ilə qədər hər il 35 milyon yeni xərçəngə tutulma qeydə alınacaq, bu da 2022-ci illə müqayisədə 77% artım deməkdir. Ekspertlər qeyd edir ki, pandemiya dövründə xərçəng diaqnozu və müalicəsi ciddi şəkildə azalıb. Dünyada 1 milyon xərçəng halı pandemiya səbəbindən vaxtında aşkar edilməyib. 2020-ci ilin ilk ilində xərçəng diaqnozu 23%, müalicə isə 28% azalıb. Xərçəngin erkən aşkar edilməsi üçün nəzərdə tutulan skrininq testləri də əhəmiyyətli dərəcədə azalıb, bəzi ölkələrdə isə bu rəqəm 59%-ə çatıb.

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

**PKK lideri Abdullah Öcalan 26 ildən sonra ilk dəfə yayımlanan videomüraciətində təşkilatı silahlı mübarizəyə son qoymağa çağırıb. 1999-cu ildən İmralı həbsxanasında saxlanılan Öcalan videomesajında PKK-nın artıq milli-dövlət məqsədindən və müharibə strategiyasından əl çəkdiyini bildirib. O, "Sülh və Demokratik Cəmiyyət" proqramı çərçivəsində könüllü silahsızlanmanın və Türkiyə Böyük Millət Məclisinin prosesə rəhbərlik etməsinin vacibliyini vurğulayıb.**

# Silah buraxmaq, yoxsa yeni Kürdüstan oyunu - Bakıdan baxış

## Tarixçi ekspert: "Bütün dünyanın qəbul etdiyi iki kürd mərkəzi formalaşıb - bunlardan biri Bərzani ailəsidir, digəri isə həbsdə olan Öcalandır..."




MHP lideri Dövlət Baxçalının təşəbbüsü ilə başlanan yeni sülh prosesi çərçivəsində yaxın günlərdə PKK-nın rəsmi silahqoyma mərasimi keçirəcəyi gözlənilir. Öcalan çıxışında həmçinin qeyd edib ki, silahların yerini siyasət və sosial sülh tutmalıdır.

Maraqlıdır ki, Öcalanın müraciətindən saatlar əvvəl kürd Harki tayfası Bərzani hökumətinin peşmərgə qüvvələri ilə silahlı qarşıdurmaya girib. Kürd mediası xəbər verir ki, Ərbil vilayətinin qərb hissəsində (İraq Kürdüstanı) kürd təhlükəsizlik qüvvələri ilə yerli Hərki qəbiləsinin tərəfdarları arasında şiddətli toqquşmalar baş verib. Hadisələr Xabat rayonunun Karahancir kəndində təhlükəsizlik qüvvələrinin torpaq mülkiyyəti ilə bağlı davam edən mübahisə çərçivəsində qəbilə üzvünü həbs etməyə cəhd etməsindən sonra baş verib. Rəis Xurşid Hərkinin tərəfdarları yolları bağlamaq və təhlükəsizlik qüvvələrinin irəliləməsinə mane olmaq üçün atəş açıb və təkərləri yandıraraq müqavimət göstəriblər.

PKK silahı buraxır, bəs sonra? Ərbildə baş verənlərlə Öcalanın müraciəti arasında hansısa bağlılıq varmı, bu yeni Kürdüstan yaratmaq oyunudurmu?

**Azad Vətən Partiyasının sədri Akif Nağı** "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, kürd-PKK məsələsi mürəkkəb bir neçə düyünlə əhatə olunub: "Burada bir çox nüanslar var. PKK, bildiyiniz kimi, SSRİ tərəfindən yarandı. Sonradan ictimai qüvvəyə çevrildilər. Ona görə də onlardan istifadə edənlərin sayı artdı. Bu günlərdə PKK-dan istifadə edənlərin sayı daha da çoxalıb. Müxtəlif mərkəzlər, dövlətlər var ki, bu qruplaşmadan istifadə edirlər. Onun üçün də bir mərkəzdən idarə olunmadığı üçün məsələnin bitməsi çətinləşir. Digər tərəfdən, vahid bir toplum deyillər. Onların çox müxtəlif cərəyanları, rəhbərləri var. Məsələnin digər tərəfi odur ki, PKKyönlü qüvvələr ciddi imkanlara malikdir. Avropanın müxtəlif yerlərində onların çox ciddi biznes imkanları var. İndi məsələ odur ki, o biznesin sahibləri hansı qərarları verəcəklər. Uzun illər ərzində PKK daxilindəki qüvvələr öz qruplaşmalarını formalaşdırıblar. İndi o tayfalar, qəbilələr ümumi qərara tabe olacaqlarmı, bu hələ məlum deyil. Bu tayfaların bir araya gəlməsi həddindən artıq çətindir. Başqa tərəfdən, burada bütün dünyanın qəbul etdiyi iki mərkəz formalaşıb. Bunlardan biri Bərzani ailəsidir, digəri isə həbsdə olan Öcalandır. Onların arasında proses nə cür gedəcək, görəcəyik. Amma görünən odur ki, Bərzani ailəsi nəticəyə nail olub. Yeni Kürdüstanda bir kürd administrasiyası yaradıblar. Dünya da onların bu mövqeyini qəbul edir. Beynəlxalq tədbirlərdə də iştirak edirlər. Türkiyə də onları qəbul edir. Onlar da Türkiyəyə sığınıblar. Öcalan indi həbsdədir, onun nə qədər təsir imkanları qalıb, bu çox böyük bir sual altındadır. Öcalan artıq neçənci dəfədir ki, silahları yerə qoymaqla bağlı müraciət edir. Bunun kökündə nə ola bilər? Bərzani ailəsinin liderliyini bunlar da qəbul edir? Bu az ehtimal olunur. Belə bir şəraitdə Öcalan özünün yeni bir güc mərkəzini yaratma niyyətində də ola bilər. Bunu Bərzani ailəsi qarşısında etməyə çalışa bilər. Bu versiya burada keçərlidir. Burada da şübhəsiz ki, Türkiyə ilə məsləhətləşmə var. Onun müraciətində Türkiyə Böyük Millət Məclisi ilə məsləhətləşməyə açıq görünür. Hər iki tərəf istinad kimi Türkiyəni seçirlər. Bu ehtimal realdır ki, Öcalan ikinci dəfə kürd mərkəzi yaratmaq istəyir. Ankara bu proseslərdə fəaldır. Bərzani Administrasiyasının Azərbaycanla da münasibətləri var. Ötən il Azərbaycanda keçirilən ekoloji tədbirlə bağlı böyük forumda onların nümayəndələri də iştirak edirdi. Görünən odur ki, bu proseslərə Türkiyə rəhbərliyi nəzarət edir. Bu məsələyə Almaniya, İsveç nə deyəcək, şahidi olacağıq. Bilirsiniz ki, bir müddət əvvəl Türkiyə İsveçə açıq şəkildə təzyiq etdi ki, orada PKK-nın fəaliyyətini məhdudlaşdırsın. Görünən odur ki, burada öndə olan Türkiyədir və Baxçalının təşəbbüsləri təsadüfi deyil. Ola bilər ki, kürdlərin təşkilatlarının böyük əksəriyyəti Türkiyənin cızdığı xəritə ilə hərəkət etsinlər. Öcalanın müraciətində belə bir cümlə yer alır ki, onlar dövlət yaratmaq niyyətindən geri çəkilirlər. Əgər Öcalan səmimi şəkildə bu məsələni ortaya qoyursa, Türkiyə cəmiyyətinə inteqrasiya yolunu tutursa, qarşıdurmaya getmirlərsə, hərbi qarşıdurmadan çəkinirlərsə, bu onların hərəkatları üçün müsbət perspektivlər vəd edir. Əks halda, onlar oyun oynayırlarsa, güc toplayıb yenidən başlayacaqlarsa, yalnız və yalnız uduzacaqlar. Regionda İsrail və İran kimi dövlətlər kürd kartını oynada bilməzlər. Oynatsalar da tam nəticəyə nail ola bilməyəcəklər".

**AĞ Partiya başqanının I müavini, politoloq Əhəd Məmmədli Türkiyənin gücünün bir daha özünü göstərdiyinə işarə etdi:** "Siyasətdə və ümumilikdə ictimai həyatda əsas meyar reallıqdır. Reallıqlar bəzən insanları mövqelərini və baxışlarını köklü şəkildə dəyişməyə vadar edir. Bu hal bir daha təsdiqləyir ki, siyasətdə reallıqların diktəsi ilə mövqelər dəyişə bilir. Bu reallıqla bu gün PKK da üz-üzədir. Türkiyənin hərbi gücü və regional təsiri təşkilatı geri çəkilməyə məcbur edir. Dövlətlərarası və xalqlararası münasibətlərdə güc başlıca rol oynayır. Məhz bu səbəbdən, PKK artıq öz ideoloji xəttindən və əsas məqsədlərindən tədricən geri çəkilməyə məcbur qalır. Suriyada və İraqda təşkilatın adından imtina halları artmaqdadır, Türkiyənin ərazi bütövlüyünə qarşı iddialar isə zəifləməkdədir. Hazırda bu bölgələrdə fəaliyyət göstərən qurumlar muxtariyyət çərçivəsində varlıqlarını davam etdirməyə razılıq nümayiş etdirirlər. Suriyanın şimalı və İraqın şimalında fəaliyyət göstərən PKK, YPG və PYD kimi kommunist və ateist ideologiyalı siyasi qurumların təsiri minimuma endirilməlidir. Onların əvəzinə İslam dəyərlərinə yaxın, Türkiyə ilə dost münasibətlərə malik olan kürd siyasi təşkilatları ön plana çıxarılmalıdır. Məsələn, İraqda Bərzani rəhbərliyinin Türkiyə ilə qurduğu yaxın münasibətlər nümunə göstərilə bilər. Oradakı idarəetmə strukturları bəzi hallarda Türkiyənin birbaşa dəstəyi ilə fəaliyyət göstərir, hətta əməkhaqları belə Ankara tərəfindən təmin olunur. Bu modelin Suriyada da tətbiqi ola bilər. Türkiyənin siyasi və hərbi təsiri altında olan strukturların bölgədə möhkəmlənməsi həm Türkiyənin milli təhlükəsizlik maraqları, həm də regional sabitliyin təmin olunması baxımından vacib əhəmiyyət kəsb edir. Ankara bu istiqamətdə həm İraqda, həm də Suriyada ardıcıl və məqsədyönlü siyasət yürüdür və artıq bu siyasətin nəticələri müşahidə olunmağa başlanıb".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Kurenkov Bakıdan Moskvaya əliboş qayıtdı




**Rusiyanın fövqəladə hallar naziri Aleksandr Kurenkov Bakıdan Moskvaya əliboş qayıdıb.**

Axar.az xəbər verir ki, bu barədə Rusiya təhlükəsizlik qüvvələrinə yaxın olan VÇK-OQPU Telegram kanalı məlumat yayıb.

Qeyd olunub ki, İlham Əliyev Rusiya prezidentinin şəxsi nümayəndəsi ilə görüşdən imtina edib:

"Ötən ilin dekabrında AZAL sərnişin təyyarəsinin Rusiya tərəfindən vurulması faktının tanınması ilə bağlı Azərbaycanın ilkin olaraq irəli sürdüyü şərtlər hələ də qəbul olunmayıb. Kurenkovun Azərbaycan paytaxtında olduğu vaxt yerli məhkəmə rusiyalı jurnalistlərin qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı müraciətlərini rədd edib. Formal olaraq nazir Bakıda fövqəladə hallar nazirlərinin dar çərçivədə keçirilən müşavirəsində iştirak edib. Kurenkov Azərbaycan Prezidenti ilə qeyri-rəsmi görüş keçirmək niyyətində idi, lakin Moskvaya qeyri-rəsmi dialoqun olmayacağı izah olundu və Aleksandr Kurenkov Azərbaycana səfərinin müddətini qısaltmağa məcbur oldu".

# Həbs edilən azərbaycanlıların şikayətləri təmin edilmədi



**Rusiyanın Sverdlovsk Vilayət Məhkəməsi son illər Yekaterinburqda qətl törətməkdə təqsirləndirilən Ayaz Səfərovu həbsdə saxlayıb.**

TASS xəbər verir ki, bu barədə vilayət məhkəmələrinin birləşmiş mətbuat xidməti məlumat yayıb. "Yekaterinburq şəhəri Lenin Rayon Məhkəməsinin 29 iyun 2025-ci il tarixli qərarı ilə Ayaz Möhbalı oğlu Səfərov barəsində 2025-ci il iyulun 19-dək həbs-qətimkan tədbiri seçilib. İbtidai istintaq orqanları Səfərovu Rusiya Cinayət Məcəlləsinin 102-ci maddəsinin 1-ci hissəsinin "j" bəndində nəzərdə tutulmuş cinayəti törətməkdə ittiham edirlər (bir qrup şəxs tərəfindən qabaqcadan əlbir olaraq və ya mütəşəkkil qrup tərəfindən törədildikdə). Təqsirləndirilən şəxsin vəkili qərardan Sverdlovsk Vilayət Məhkəməsinə şikayət etsə də, heç bir nəticəsi olmayıb", - deyə məlumatda bildirilib.

Məhkəmə həmçinin Akif Səfərovun da apelyasiya şikayətini birinci instansiya məhkəməsinə qaytarıb.

Xatırladaq ki, iyunun 28-də Rusiya İstintaq Komitəsinin Sverdlovsk vilayəti üzrə İstintaq İdarəsi 2000-ci illərin əvvəlində Yekaterinburqda törədilmiş bir sıra qətllərdə iştirak edən qrupun fəaliyyətinin qarşısının alınması barədə məlumat yayıb. Səkkiz təqsirləndirilən şəxs nəzarətə alınıb.

YENİ MÜSAVAT
N 118 (8728) 11 iyul 2025

**Dənizə çıxışı olmayan Özbəkistan Asiya ilə Avropanı birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu və ya Orta dəhliz üzrə yükdaşımaları artırmaq üçün Xəzər dənizində öz ticarət donanmasını qurur.**



# Xəzərdə daha bir türkdilli ölkə bayrağı

## Özbəkistan bayrağı altında olan bərələr əsas nəqliyyat marşrutu olan Orta dəhliz üzrə yüklərin çatdırılmasını əhəmiyyətli dərəcədə sürətləndirəcək

Türk şirkətləri yeni gəmilərin idarə olunmasında onun tərəfdaşları olacaq. Amma prosesdə Azərbaycan Özbəkistanın əsas tərəfdaşı və yardımçısı olacaq.

Özbəkistanın nəqliyyat naziri İlxom Mahkamov "Özbəkistan 24" telekanalına müsahibəsində bildirib ki, yaxın vaxtlarda Xəzər dənizində Özbəkistan bayrağı altında bərələr peyda olacaq ki, bu da ölkəni Azərbaycanla birləşdirən əsas nəqliyyat marşrutu olan Orta dəhliz üzrə yüklərin çatdırılmasını əhəmiyyətli dərəcədə sürətləndirəcək. Onun sözlərinə görə, bu qərar prezident Şavkat Mirziyoyevin Azərbaycana səfərinin nəticəsi olub, təkcə iqtisadiyyatı və ticarəti stimullaşdırmaq üçün deyil, həm də nəqliyyat və logistika sahəsində əməkdaşlığı əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq məqsədi daşıyır. Transxəzər marşrutu Özbəkistan tərəfindən cənub və şimal istiqamətlərinə alternativ kimi, xüsusən də artan ixrac və tranzit axınları fonunda vacib hesab olunur. İlxom Mahkamov vurğulayıb ki, ölkənin öz bərə parkının yaradılması zərurəti Xəzər dənizi ilə yükdaşımaların həcminin 25%-ə qədər artması və bəzən digər ölkələrdən bərə gözləməsinin 30-40 günə çatan əhəmiyyətli gecikmələri ilə bağlıdır. Layihənin həyata keçirilməsi üçün Özbəkistana dəstək verməyə hazır olan türkiyəli tərəfdaşlarla artıq razılıq əldə olunub. Nazir həmçinin xatırladıb ki, Azərbaycan öz ərazisi ilə konteyner dəmir yolu ilə daşımalarda güzəştli şərtləri uzadıb. 70%-ə qədər endirim 2026-cı ilin sonuna qədər qüvvədə olacaq ki, bu da Orta dəhlizin inkişafına daha da töhfə verəcək. Azərbaycan Özbəkistana ticarət gəmilərinin layihələndirilməsi və inşasında da köməklik göstərəcək. Layihənin dəyəri 150 milyon dollar qiymətləndirilir. İki ölkənin liderləri Şavkat Mirziyoyev və İlham Əliyev müvafiq sənədi Özbəkistan və Azərbaycan Ali Dövlətlərarası Şurasının 2025-ci il iyulun 2-də Bakıda keçirilmiş iclasının yekunları üzrə imzalayıblar. **Rusiyalı ekspert Stanislav Pritçinin** sözlərinə görə, Xəzər dənizində Özbəkistanın öz ticarət donanmasının yaradılması təkcə nəqliyyat imkanlarını genişləndirməyəcək, həm də xarici daşıyıcılardan asılılığı azaldacaq. Lakin ekspertin dediyi kimi, bu, nəqliyyat dəhlizinin səmərəli işləməsi üçün bunlar kifayət etmir: "Özbəkistanın Xəzər dənizində öz liman infrastrukturuna ehtiyacı var, çünki tərəfdaşlar ilk növbədə öz şirkətlərinin gəmilərini yükləyəcəklər. Azərbaycan, Qazaxıstan və ya Rusiya gəmiçilik şirkətləri ilə razılaşmalardan asılılıq risklər yaradır. Artıq qurulmuş Xəzər bazarında yeni oyunçunun meydana çıxması, şübhəsiz ki, rəqabəti artıracaq, lakin tam iştirak üçün Özbəkistanın təkcə öz donanmasına deyil, həm də bütün zəruri limanlara ehtiyacı var". Özbəkistanın Bakı limanında öz terminalının yaradılması ilə bağlı planları əvvəllər nəqliyyat nazirinin müavini Abdusamat Muminov tərəfindən açıqlanıb, hazırda texniki-iqtisadi əsaslandırmanın hazırlanması mərhələsindədir. Hazırda Özbəkistan idxalçıları Aktau və Kurık limanlarının imkanlarından istifadə edərək başqa limanlarda terminal icarəyə götürməyə məcburdurlar.

Ekspertlər qeyd edir ki, Özbəkistan dünyada "ikili kilidli ölkələr" kateqoriyasına daxil olan ölkələrdən biridir. Bu o deməkdir ki, okeanlara çatmaq üçün ən azı iki dövlət sərhədi keçməlidir. Buna görə də marşrutları şaxələndirmək və logistikanı yaxşılaşdırmaq üçün Daşkənd İran və Pakistanla logistika mərkəzinin yaradılması haqqında saziş imzalayıb. Yeni terminal İranın Şəhid Rəcai limanında yaradılmalı idi, lakin bu ölkədəki qeyri-sabit vəziyyətə görə layihə hələlik dayandırılıb. İndi Özbəkistan əsas diqqətini Azərbaycana yönəldib. Alternativ olaraq, Pakistanın Kəraçi limanında analoji mərkəzin yaradılması nəzərdən keçirilir. Artıq liman infrastrukturu ilə tanışlıq və Özbəkistan məhsullarının ixracını asanlaşdıra biləcək müasir anbar kompleksinin və logistika mərkəzinin yaradılması layihəsini müzakirə etmək üçün Özbəkistan nümayəndə heyəti Sind əyalətinə bu yaxınlarda səfər edib. Amma ən əlverişli variant Azərbaycan üzərindən nəqldir. Özbəkistan elə əsas diqqətini məhz bu istiqamətə yönəldib. Azərbaycan və Özbəkistan Orta dəhliz çərçivəsində nəqliyyat və logistika sahəsində birgə fəaliyyətlərini dərinləşdirib. Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyanı Avropaya birləşdirən bu dəhliz hər iki ölkənin tranzit potensialını artırır və onların regional enerji və nəqliyyat mərkəzinə çevrilməsinə zəmin yaradır. Özbəkistan Prezidenti yanında Strateji və Regionlararası Araşdırmalar İnstitutunun məlumatına görə, son 8 ildə iki ölkənin ticarət dövriyyəsinin həcmi 8 dəfə artaraq 32 milyon dollardan 253 milyon dollara çatıb. Lakin bu rəqəmi 1 milyard dollara çatdırmaq məqsədinə nail olmaq üçün sistemli işlər aparılır. Son illərdə birgə müəssisələrin sayı 5 dəfə artıb. Hazırda Özbəkistanda Azərbaycan kapitalının iştirakı ilə 240-dan çox şirkət fəaliyyət göstərir. Bununla yanaşı, Azərbaycan bazarında fəaliyyət göstərən Özbəkistan şirkətlərinin sayı 70-ə çatıb.

❑ **"Yeni Müsavat"**

# Dəhlizin sonunda işıq mütləq olacaq

## Zəngəzur dəhlizi ilə bağlı yeni proseslərə start verilir

**Bu günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, Ermənistanın Zəngəzur dəhlizi ilə bağlı mövqeyi yumşalıb. Onun sözlərinə görə, Ermənistan əvvəllər Zəngəzur dəhlizinə qarşı olsa da, iqtisadi inteqrasiyaya qoşulmaq üçün indi daha yumşaq mövqe sərgiləyir.**




Bununla belə, Türkiyə lideri hansı yumşalmadan söhbət getdiyinə aydınlıq gətirməyib.(Bakı-xeber.com).

Türkiyə prezidenti onu da deyib ki, Zəngəzur dəhlizi regionun inkişafı üçün vacib məqamdır. Onun sözlərinə görə, bu, sadəcə, Azərbaycan üçün deyil, Ermənistan, Türkiyə, İran və digər ölkələr üçün də bir fürsətdir: "Zəngəzur dəhlizinin açılması Orta dəhlizin strateji inkişafına da imkan yaradacaq. Zəngəzur dəhlizi dəmir yol sistemini də özündə birləşdirir. Orta dəhliz bütün gücünü Zəngəzur xəttindən alır. Orta dəhlizin Zəngəzur xətti ilə birləşməsi və birləşdikdən sonra yük və sərnişin daşınmasında yer alması çox önəmlidir". Orta dəhliz ticarət məqsədilə Çindən Avropaya uzanan və quru yolu ilə daşımaları nəzərdə tutan layihədir. Ermənistanda hakim fraksiyanın katibi Artur Ovanesyan jurnalistlərə açıqlamasında Zəngəzur dəhlizi ilə bağlı Ermənistanın öz ərazi bütövlüyü və suverenliyinə dair məsələdə heç bir ölkəyə güzəştə getməyəcəyini xatırladıb. Ərdoğanın fikirlərinə cavab olaraq Ermənistan Xarici İşlər Nazirliyinin sözçüsü Ani Badalyan "Armenpress" agentliyinə açıqlamasında qeyd edib ki, kommunikasiyaların açılması ilə bağlı danışıqlar davam edir və İrəvan bu prosesdə nəqliyyat yolları üzərində milli yurisdiksiyasını əsas götürür. Əslində Azərbaycan da Zəngəzur dəhlizi məsələsində Ermənistana qarşı hansısa ərazi iddiası ortaya qoymur. Bakı, sadəcə, Azərbaycan sərnişinlərinin və yüklərinin bu dəhlizdə yoxlanmasına qarşıdır. Hazırda məsələ ilə bağlı Ermənistanda müxtəlif fikirlərə rast gəlinir. Müxalif "Hayastan" fraksiyasının deputatı Geqam Manukyan hakimiyyəti gizli razılaşmalar əldə etməkdə və bunları cəmiyyətə açıqlamamaqda günahlandırıb: "Bir neçə dəfə şahidi olmuşuq ki, hansısa razılaşma barədə ilk xəbəri Bakıdan və ya Ankaradan alırıq. Ermənistan hökuməti isə bu məlumatları dolaşıq şəkildə təsdiqləyir. İndi də ehtimal olunur ki, yaxın günlərdə Sünikdən keçəcək yol ilə bağlı təhlükəli bir razılaşma açıqlana bilər." Müxalif "Şərəfim var" fraksiyasının katibi Tiqran Abrahamyan da hökuməti sərt tənqid edib. O bildirib ki, Ermənistan diplomatik mövqelərini itirib və Türkiyəyə regionda vasitəçilik rolu verib: "Ermənistan hakimiyyəti uzun müddətdir Azərbaycanla aparılan danışıqlarda Türkiyənin mövqeyini gücləndirir. Bu isə Ankaranın maraqlarına uyğun siyasətin irəliləməsinə şərait yaradır".

Bütün hallarda Naxçıvanın ərazi baxımından anklav mahiyyətindən çıxması reallaşır. Dəhliz Azərbaycan üçün böyük siyasi, coğrafi və iqtisadi əhəmiyyət daşıyır. Digər tərəfdən isə bütün region ölkələri, o cümlədən dəhlizin keçəcəyi Ermənistan və İran üçün böyük iqtisadi potensialı reallaşdırmaqdan ötrü beynəlxalq imkandır. Bu günlərdə isə Karnegi Fondu diplomatik mənbələrə istinadən məlumat yayıb ki, ABŞ Prezidenti Donald Trampın administrasiyası İrəvan və Bakını Ermənistan ərazisindən Azərbaycanı Naxçıvanına birləşdirən yolun açılmasını təklif edib. Bütün bunlar Ermənistanın Zəngəzur dəhlizi ilə bağlı siyasətinin dəyişməsinə təsir edir.

❑ **"Yeni Müsavat"**

**Bakı şəhərində Dövlət Yol Polisi əməkdaşları tərəfindən keçirilən profilaktik tədbirlər zamanı 278 skuter, moped və velosiped sürücüsü ilə izahedici söhbətlər aparılıb. Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb.**

# Bakıda yeni “trafik canavarları” - təhlükə böyüyür

## Harada gəldi skuter, moped və velosiped sürənləri necə cəzalandırmalı?



Nazirlikdən bildirilib ki, tədbirin məqsədi bu nəqliyyat vasitələrindən istifadə edən şəxsləri yol hərəkəti qaydalarına əməl etməyə təşviq etmək, həm özlərinin, həm də digər hərəkət iştirakçılarının təhlükəsizliyini təmin etməkdir: “Səssiz və sürətli hərəkət bu nəqliyyat vasitələrini piyadalar üçün riskli edir. Vətəndaşlar velosiped zolaqlarından düzgün istifadə etməli, piyada səkilərində sürməkdən çəkinməlidir, qoruyucu dəbilqə və digər təhlükəsizlik vasitələrindən istifadəyə diqqətlə yanaşmalıdır”.

Son illərdə Bakıda skuter, moped və velosiped kimi fərdi nəqliyyat vasitələrinin sayı nəzərəçarpacaq dərəcədə artıb. Xüsusilə gənclər və yeniyetmələr bu vasitələrə üstünlük verir. Ancaq müşahidələr göstərir ki, onların çoxu yol hərəkəti qaydalarını bilmədən və qoruyucu vasitələrsiz hərəkət edir, yüksək sürətlə piyada zonalarına daxil olur, qəfil manevrlərlə həm özləri, həm də digər iştirakçılar üçün təhlükə yaradır.

Bir neçə ay öncə Bakı şəhərində baş verən hadisədə skuter sürücüsü yüksək sürətlə hərəkət edərkən qarşısına çıxan piyadanı vuraraq ona ağır xəsarət yetirmişdi. Belə hallar son aylarda daha tez-tez qeydə alınır.

Rəqəmlərə nəzər salsaq, 2023-cü ildə Azərbaycanda qeydə alınan yol-nəqliyyat hadisələrində velosiped və skuter sürücülərinin iştirakı ilə baş verən qəzaların sayı 300-dən çox olub və bu, əvvəlki illə müqayisədə təxminən 40% artım deməkdir. 2024-cü ilin ilk yarısında isə artıq 200-dən çox belə hadisə qeydə alınıb.

Dünyada mikromobillik - yəni velosiped, elektrikli skuter və moped kimi fərdi ekoloji təmiz nəqliyyat vasitələrinin istifadəsi - xüsusilə böyük şəhərlərdə sürətlə yayılır. Paris, Berlin, Madrid, New York və Seul kimi şəhərlərdə bu vasitələr həm nəqliyyat sıxlığını azaltmaq, həm də ətraf mühitə zərəri minimuma endirmək üçün vacib alternativ sayılır.

Ancaq bütün bu şəhərlərdə belə halların təhlükə yaratmaması üçün ciddi tədbirlər görülüb. Məsələn, Parisdə skuter və velosiped sürücüləri üçün geniş, müstəqil zolaqlar yaradılıb. Piyada zonalarında skuter sürmək qəti qadağandır və cəriməsi 135 avrodur.

Berlində isə qaydaları pozanlara qarşı sərt cərimələr tətbiq edilir, skuter icarəsi üçün minimum yaş 14 müəyyən edilib və dəbilqə tövsiyə olunur. New Yorkda 25 km/saat-dan yüksək sürət qadağandır, vətəndaşların maarifləndirilməsi üçün geniş kampaniyalar keçirilir.

Seulda isə skuter sürücüləri üçün onlayn test imtahanları tətbiq olunur və yalnız icazə alanlar bu vasitələri idarə edə bilir.Bu tədbirlər nəticəsində həm qəza halları azalıb, həm də şəhər mərkəzlərində piyada təhlükəsizliyi təmin edilib.

Bakı üçün də mikromobillik vacib və müsbət bir tendensiyadır. Xüsusilə nəqliyyat sıxlığının həllində, ətraf mühitin qorunmasında və daşınma xidmətlərinin genişlənməsində böyük rol oynaya bilər. Ancaq vəziyyət düzgün idarə olunmazsa, bu, şəhər üçün səssiz və təhlükəli bir problemə çevrilə bilər.

Ekspertlər hesab edir ki, bunun üçün şəhərdə daha çox və daha geniş velosiped və skuter zolaqları yaradılmalı, qaydaların pozulmasına qarşı daha ciddi nəzarət və sərt cərimələr tətbiq edilməli, yol hərəkəti qaydaları öyrədilməli, skuter və moped icarəsi üçün minimum yaş həddi və təhlükəsizlik qaydaları müəyyən edilməlidir. Qoruyucu dəbilqə və digər vasitələrdən istifadəyə nəzarət isə gücləndirilməlidir.

Çünki mikromobillik Bakının gələcəyi üçün vacib və qaçılmaz bir istiqamətdir. Ancaq bu vasitələrin düzgün idarə olunması üçün qanunvericilik, infrastruktur və maarifləndirmə səviyyəsində ciddi addımlar atılmalıdır. Əks halda, şəhərin səssiz və sürətli “trafik canavarları” həm piyadalar, həm də özləri üçün təhlükə mənbəyinə çevrilə bilər.

**Nəqliyyat üzrə ekspert Eldəniz Cəfərov** “Yeni Müsavat”a bildirib ki, tələbata uyğun olaraq moped və skuterlərdən istifadə edənlərin sayı artıb. Onun sözlərinə görə, qəza riskləri öncədən proqnozlaşdırılır: “Ona görə də ötən il ərzində məhz mikromobillik vasitələri kiçik elektrik mühərrikli nəqliyyat vasitəsi kimi qanunvericilikdə təsbit olundu. Bizdə artıq qanunverici baza var. İnzibati xətalar məcəlləsində və "Yol hərəkəti haqqında" Qanunda da cərimələr müəyyən edilib. Yaşı 14-dən aşağı olan insanların elektron skuter sürməsi qadağandır. Həmçinin müəyyən qaydalar da artıq tərtib olunub. Belə ki, 24 saat ərzində həmin nəqliyyat vasitələrinin önündə və arxasında fənərləri yanılı vəziyyətdə olmalıdır. Skuter sürənlər avtomobil yolunun zolağının sağ zolağı ilə hərəkət etməlidir”.

**Ekspert bildirir ki, qaydaları pozan skuter sürücüsü 40 manat cərimələnir:** “Baxmayaraq ki, skuter və moped sürücülərindən vəsiqə tələb olunmur, lakin bütün hallarda cərimə təyin edilir. Kiməsə xətər yetirsələr və başqa nəqliyyat vasitəsinə ziyan vursalar, 150 manat cərimə nəzərdə tutulur. Sərxoş halda idarə etmək qadağandır.

Bizim gənc vətəndaşlarımız hələ ki qanunu dərk edə bilmir. Onlar başa düşmürlər ki, bu cür nəqliyyat vasitələri artıq əyləncə vasitəsi olmaqdan çıxıb və şəhər mühitində nəqliyyat vasitəsinə çevrilib. Qaydalara əməl etmək lazımdır. Bir çox yeniyetmə qanundan və qaydalardan xəbərsizdir. Dövlət yol polisi maarifləndirmə işləri aparır, reydlər keçirir, söhbətlər aparır. Qayda pozuntuları davam etdikcə, maarifləndirmə işləri davam etdirilməlidir".

**E.Cəfərov skuterlərin sürətinin azaldılmasını da təklif edir:** “Şəhər mühitində skuterlərin sürət həddi azaldılmalıdır. Elə şəxslər var ki, onlar sürət həddini aşır. Düşünürəm ki, sürət həddi maksimum saatda 15 km olsa, kifayətdir. Hazırda saatda 25, 35 km yol gedən skuterlər də var. Cərimə və maarifləndirmə paralel aparılmalıdır. Vəziyyət acınacaqlı hal alarsa, skuterdən istifadə edənlərin yaş həddini 14-dən bir az da yuxarı qaldırmaq olar. Qəzaların qarşısını almağın bir yolunu tapmaq lazımdır. Çünki istifadəçilərin sayı günbəgün artır. Skuter istifadəçilərini hətta sadə suallarla onlayn test də etmək olar və yalnız ondan sonra nəqliyyat vasitəsini kirayə götürsün. Həm də qaydaları izah etmək, cərimələr haqqında məlumat vermək lazımdır. Bütün bunları bilөndən sonra daha səliqəli şəkildə idarə edəcəklər”.

❑ **Şahanə RƏHİMLİ, “Yeni Müsavat”**

# Əhali daha çox dərmana pul xərcləyir



**“2025-ci ilin ilk 5 ayında pərakəndə ticarət dövriyyəsi 3.8 faiz artaraq 23 milyard 341 milyon manat olub. Bu, məhz həmin məbləğdə mal və xidmətlərin istehlakçılara satılması anlamına gəlir”.**

Bu barədə **millət vəkili Vüqar Bayramov** sosial şəbəkə hesabında yazıb.

Onun sözlərinə görə, pərakəndə ticarət dövriyyəsinin strukturunda diqqətçəkən əsas məqamlardan biri əczaçılıq məhsulları və tibb ləvazimatlarına çəkilən xərclərdir: “Belə ki, bu xərclər əvvəlki ilin eyni dövrü ilə müqayisədə 18.2 faiz artaraq 598 milyon manatdan çox olub. Əczaçılıq məhsullarının alınmasına çəkilən xərclərdə artım həmin dövrdə pərakəndə ticarətin struktrunda rekord səviyyədə olub və bütün digər istiqamətləri üstələyib. Digər tərəfdən, həmin dövrdə yalnız bu istiqamət üzrə xərclərdə ikirəqəmli artım faizi qeydə alınıb. Bütün digər xərclər üzrə artım faizi birrəqəmlidir”.

**Millət vəkili əczaçılıq məhsulları üzrə xərclərdə kəskin artımı belə izah edir:** “Bu, dərman preparatlarının qiymətlərindəki dəyişikliklər və eləcə də tibbi xidmətlərə tələbin yüksəlməsi ilə bağlıdır. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, istehlak malları və əhaliyə göstərilən ödənişli xidmətlər üzrə tibbi xidmətlərin qiyməti həmin dövrdə 4.5 faiz yüksəlib. Tibbi təyinatlı malların qiymətində də artım qeydə alınıb. Bu isə o deməkdir ki, tələbin artması ilə yanaşı, tibbi xidmətlərdə qiymət artımları da davam edib”.

# “Kartdan karta” ənənəsi yığışdırılır



**Vergi və istehlakçı hüquqlarının qorunması baxımından post-terminal cihazlarının fəaliyyət göstərməsi mühüm əhəmiyyət daşıyır.**

Bunu News24.az-a açıqlamasında **iqtisadçı ekspert Günay Hüseynova** deyib. O qeyd edib ki, cihazlarda nasazlığın baş verməsi və ya sahibkarın bilərəkdən istehlakçını aldatması, eləcə də ödənişi yalnız nağd şəkildə tələb etməsi qanunvericiliyin müddəalarına ziddir: “Alqı-satqı əməliyyatları zamanı istehlakçı nəğd vəsaitin olmadığını bildirdikdə, bəzi hallarda ondan ödənişi birbaşa kart hesabına göndərməsi tələb olunur ki, bu da qanunvericiliyə uyğun olmayan bir praktika hesab olunur. Əgər istehlakçı ödənişi kart hesabına həyata keçirirsə, ona mütləq şəkildə kassa çeki və ya faktura təqdim edilməlidir. Həmin vəsait birbaşa satıcının və ya işçinin şəxsi hesabına deyil, rəsmi olaraq müəssisənin bank hesabına yönəldilməlidir”.

Ekspert qanunvericiliyin tələblərinə əsasən, post-terminal və ya kassa aparatının olmaması, habelə vergi uçotunda olan şəxsin gəliri şəxsi kart hesabına köçürməsinin nəzarətsiz ticarət fəaliyyəti kimi qiymətləndirildiyini və bu cür hallarda həm fiziki, həm də hüquqi şəxslərin qanunvericilik qarşısında məsuliyyət daşıdığını bildirib.

YENİ MÜSAVAT
N 118 (8728) 11 iyul 2025

# Ərəblərin Azərbaycana artan marağı - 17 milyonluq proje

## Ölkələr arasında qarşılıqlı investisiya qoyuluşlarının dinamikasına nəzər yetirdikdə, aydın olur ki, proses ildən-ilə sürətlənir



**Azərbaycanla BƏƏ arasındakı iqtisadi əlaqələrdə sıçrayışlı inkişaf 2021-ci ildən başlayıb. Torpaqlarımızın işğaldan azad olunmasından sonra Azərbaycanın yaşıl enerji sahəsində irəli sürdüyü çoxmilyardlıq təşəbbüslər ərəb ölkələrinin potensial investorlarının diqqətini cəlb edib. Xüsusilə Xəzər dənizinin külək enerjisi potensialından istifadə etməklə Avropaya yaşıl enerji ixracını hədəfləyən planlara yalnız BƏƏ deyil, Səudiyyə Ərəbistanının da marağına səbəb olub. Təsadüfi deyil ki, 2022-ci ildə Azərbaycandan Avropaya Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsinə dair Buxarest razılaşması imzalandıqdan bir neçə ay sonra Səudiyyə Ərəbistanı rəsmi şəkildə layihəyə qoşulmaq istəyini ifadə etdi.**

Ardınca BƏƏ-nin alternativ enerji istehsalı sahəsində dünyada tanınmış şirkəti olan "Masdar" Azərbaycanla əməkdaşlığa başladı. 2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, "AzərEnerji" ASC və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Bu müqavilələr əsasında qurulan əməkdaşlıq çərçivəsində 2022-ci il martın 15-də "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasının - Qaradağ Günəş Elektrik Stansiyasının təməli qoyulub. Stansiya 2023-cü ilin oktyabrında istifadəyə verilib.

2022-ci il iyununda "Bakı Enerji Həftəsi"nin Şuşada keçirilən xüsusi sessiyası çərçivəsində Energetika Nazirliyi və "Masdar" şirkəti arasında "Azərbaycan Respublikasında quruda sənaye miqyaslı 1QVt gücündə günəş və 1QVt gücündə külək enerjisi layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra Müqaviləsi" və "Dənizdə 2 QVt gücündə inteqrasiya edilmiş külək və yaşıl hidrogen layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra Müqaviləsi" imzalanıb.

Quruda ümumi qoyuluş gücü 2 QVt olan külək-günəş enerjisi layihələri üzrə İcra Müqaviləsi çərçivəsində istehsal olunacaq enerjinin müəyyən bir qisminin ölkənin enerji sisteminə ötürülməsi üçün şəbəkə imkanlarının müfəssəl araşdırılması, şəbəkənin gücləndirilməsi üzrə lazımi tədbirlərin görülməsi, həmçinin elektrik enerjisinin ixracı məqsədilə müvafiq proseslərin həyata keçirilməsinə başlanıb.

Dənizdə qoyuluş gücü 2 QVt olan külək və hidrogen enerjisi layihələri üzrə İcra Müqaviləsi isə istehsal və ixrac məqsədli külək elektrik enerjisi güclərinin yaradılmasını, karbonsuzlaşdırma, hidogenin istehsalı və ixracı istiqamətində kompleks tədbirlərin görülməsini nəzərdə tutur.

2023-cü il oktyabrın 26-da Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycan Hökuməti ilə "Masdar" şirkəti arasında sənədlərin imzalanması mərasimi olub. Azərbaycan Hökuməti tərəfindən energetika naziri Pərviz Şahbazov, SOCAR tərəfindən iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl-Ramahi "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Neftçala rayonunun Bankə qəsəbəsində Günəş elektrik stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni, "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Biləsuvar rayonunda Günəş elektrik stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni və "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company-Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Abşeron-Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı İnvestisiya müqaviləsi"ni imzalanıb.

Azərbaycanla BƏƏ-nin investisiya əməkdaşlığında ərəb dövlətinə məxsus Əbu-Dabi Milli Neft Şirkəti (ADNOC) ilə SOCAR arasındakı tərəfdaşlıq xüsusi xətt olaraq keçir. 2023-cü ilin avqustunda ADNOC Azərbaycanın Xəzər dənizində yerləşən "Abşeron" qaz-kondensat yatağının işlənməsi layihəsində 30 faizlik pay alıb. Müvafiq müqavilə SOCAR, layihənin digər tərfdaşı Fransanın "TotalEnergies" şirkəti və Əbu-Dabi Milli Neft Şirkəti (ADNOC) arasında imzalanıb.

ADNOC və SOCAR əməkdaşlığının inkişafı nəticəsində 2024-cü ildə şirkətlər arasında daha bir müqavilə imzalanıb. Həmin müqaviləyə əsasən SOCAR BƏƏ-dəki SARB və "Umm Lulu" yataqlarında iştirak payının 3 faizini əldə edib.

Azərbaycandan BƏƏ-yə investisiyaların yatırılmasında Dövlət Neft Fondunun (ARDNF) aktivliyi diqqəti cəlb edir. Belə ki, 2024-cü ilin iyununda fond BƏƏ-dəki "GEMS Education" təhsil şəbəkəsinə 100 milyon dollar yatırım etdiyini açıqlayıb. ARDNF "GEMS Education" şirkətinə yatırımı 17 iyun 2024-cü il tarixində investorlar konsorsiumunun üzvü olaraq edib. Bu konsorsiuma rəhbərliyi alternativ investisiyaların idarə edilməsi üzrə dünyanın ən nəhəng investisiya şirkətlərindən biri olan "Brookfield Asset Management" həyata keçirib. Sözügedən investisiya ARDNF-nin Yaxın Şərqə birbaşa olaraq etdiyi ilk yatırım idi.

Bu ilin may ayında isə ARDNF Əbu-Dabidə yerləşən, qlobal alternativ investisiya şirkəti olan "Lunate Capital" ("Lunate") tərəfindən idarə olunan ixtisaslaşmış investisiya fondu vasitəsilə "ADNOC Gas Pipeline Assets LLC" ("AGPA") şirkətinə 50 milyon ABŞ dolları həcmində investisiya yatırıb. Məlumata görə, bu investisiya ARDNF-nin investisiya portfelini şaxələndirmək və Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) regionundakı fəaliyyətini genişləndirmək strategiyasına xidmət edir.

Ölkələr arasında qarşılıqlı investisiya qoyuluşlarının dinamikasına nəzər yetirdikdə, aydın olur ki, proses ildən-ilə sürətlənir. Belə ki, Mərkəzi Bankın məlumatına əsasən, 2019-cu ildə BƏƏ-dən Azərbaycana investisiya qoyuluşu 63,4 milyon dollar, 2020-ci ildə 26,9 milyon dollar, 2021-ci ildə 71 milyon dollar, 2022-ci ildə 80,4 milyon dollar, Azərbaycandan BƏƏ-yə inmvestisiyalar isə müvafiq olaraq 17,2 milyon dollar, 14 milyon dollar, 7,3 milyon dollar və 148,2 milyon dollar təşkil edib. 2023-cü ildə BƏƏ-dən Azərbaycana birbaşa xarici investisiyaların həcmi 1 milyard 857 milyon dollara yüksəlib. Bu dövr ərzində Azərbaycandan BƏƏ-yə 94,819 milyon ABŞ dolları sərmayə qoyulub.

Ötən il Azərbaycanın BƏƏ iqtisadiyyatına birbaşa xarici investisiyaları 457,531 milyon ABŞ dolları təşkil edib. Beləliklə, investisiyaların həcmi illik müqayisədə 4,82 dəfə və ya 362,712 milyon ABŞ dolları artıb. Bu, Azərbaycandan xaricə yatırılan birbaşa investisiyaların 26 faizi deməkdir. Öz növbəsində, BƏƏ 2024-cü ildə Azərbaycan iqtisadiyyatına 490,156 milyon ABŞ dolları (+53,67 faiz) birbaşa sərmayə qoyub. Əmirlik investisiyalarının Azərbaycanda birbaşa xarici investisiyalarının ümumi həcmindəki payı 7 faiz təşkil edib.

BƏƏ şirkətləri Azərbaycanda yalnız enerji sektoruna deyil, kənd təsərrüfatı, nəqliyyat və logistika sahəsindəki layihələrə də diqqət göstərirlər. Azərbaycanda ilk Azad İqtisadi Zonanın yaradılması layihəsi məhz Dubay möcüzəsini yaradan "DP World" şirkəti tərəfindən hazırlanıb. Bu yaxınlarda isə Birləşmiş Ərəb Əmirliklərinin "SENSEMI DMCC" şirkətinin Azərbaycandakı nümayəndəliyinə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti statusu verilib.

Açıqlanan rəsmi məlumata əsasən, yeni rezident tərəfindən Sənaye Parkının 2 hektar ərazisində transformator istehsalı müəssisəsi yaradılacaq. Müasir avadanlıqlardan istifadə ediləcək müəssisədə il ərzində 3 min ədəd transformator istehsalı nəzərdə tutulur. Layihənin investisiya dəyəri 17 milyon manata yaxındır.

İki ölkə arasında qarşılıqlı investisiya qoyuluşlarının sürətli artımında birgə investisiya fondunun yaradılması planları mühüm yer tutur. Belə ki, 2023-cü ilin dekabrında Azərbaycan İnvestisiya Holdinqi və Əbu-Dabi İnkişaf Holdinq Şirkəti arasında Birgə sərmayə çərçivə razılaşması imzalanıb. Razılaşmanı Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Birləşmiş Ərəb Əmirliklərinin investisiya naziri Məhəmməd Həssən Əl Suveydi imzalayıblar. 2025-ci ilin fevralında M.Cabbarov və Məhəmməd Həsən Əl Suveydi növbəti görüşü keçiriblər. Bu haqda iqtisadiyyat naziri Mikayıl Cabbarov sosial şəbəkə hesabında paylaşım edib: "Ölkələrimizin iqtisadi tərəfdaşlığını gücləndirmək istiqamətində ticarət, investisiya, energetika, kənd təsərrüfatı və maliyyə sahələrində potensial işbirliyi imkanlarını dəyərləndirdik. Birgə İnvestisiya Fondunun fəaliyyəti və prioritet sahələrə sərmayə qoyuluşu barədə müzakirələr apardıq".

Prezident İ.Əliyev də BƏƏ ilə yaradılmasına başlanan Birgə İnvestisiya Fondunun iki ölkənin sərmayə əməkdaşlığını daha da dərinləşdirəcəyini vurğulayıb.

Gözlənilir ki, fondun fəaliyyətə başlaması ilə Azərbaycanın kənd təsərrüfatı, turizm və digər sektorlarına da BƏƏ investisiyalarının sürətli artımı başlayacaq.

Qeyd edək ki, BƏƏ dünyada müasir texnologiyalara, alternativ enerji layihələrinə ən çox sərmayə yatıran ölkələrdən biridir. Azərbaycan xüsusilə qabaqcıl texnologiyalar sahəsində bu ölkə ilə əməkdaşlıqdan böyük faydalar əldə edə bilər.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 118 (8728) 11 iyul 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

# Dini təqvimdə narazılıq yaradan fərqlilik

## Ekspert: “Azərbaycanda din sahəsində xaotik vəziyyət var”

**Hazırda müsəlman dünyası, xüsusilə də şiə məzhəbinə mənsub olanlar üçün dərin mənəvi və emosional anlam daşıyan Məhərrəm ayını yaşayır. Bu ay İslam tarixində kədərin, ədalət uğrunda mübarizənin və haqsızlığa qarşı duruşun simvoluna çevrilmiş mühüm hadisə ilə - Aşura və ya Kərbəla faciəsi ilə yadda qalıb.**

Hicrətin 61-ci ili (Miladi təqvimlə 680-ci il) Məhərrəm ayında İraqın Kərbəla çölündə baş verənlər bütövlükdə İslam təqvimində ən acı və taleyüklü hadisələrdən biridir. Məhərrəm ayının 10-cu (ərəbcə “əşərə”- Aşura) günündə İslam Peyğəmbəri həzrət Məhəmmədin (s.) nəvəsi, İmam Əlinin (ə) və Həzrət Fatimənin (ə) oğlu İmam Hüseyn (ə) ailə üzvləri və tərəfdarları ilə birlikdə Kərbəla çölündə qətlə yetirilib.

Ərəb dilində “onuncu” mənasını verən “Aşura” sözü, həm də İslam məzhəblərinin kəsişdiyi nöqtədə dayanan bir simvol kimi çıxış edir. Azərbaycanda Məhərrəm ayı boyunca insanlar oruc tutur, Kərbəla şəhidlərini yad edir, müxtəlif xeyriyyə tədbirləri və ehsanlar təşkil edirlər. Bəzi bölgələrdə hələ də qədim “dəstə” və “mərasim yürüşləri” ənənəsi yaşadılır.

Azərbaycan xalqı əsrlərdir ki, Kərbəla faciəsini yalnız dini deyil, ictimai ədalət simvolu kimi yad edir. Ənənəvi “mərsiyə məktəbləri”, Kərbəla faciəsini əks etdirən xalq ədəbiyyatı nümunələri və dini teatr elementləri bu hadisənin mədəni müstəviyə keçdiyini sübut edir. Xüsusilə XIX əsr və XX əsrin əvvəllərində “Məclisi-üns”, “Məclisi-füsus” kimi ədəbi cəmiyyətlərdə yazılmış Aşura mədhiyyələri bu prosesin poetik zirvəsidir. Hətta sovet dönəmində, dini mərasimlər rəsmi şəkildə yasaqlansa da, Azərbaycan xalqı bu ayinləri folklor və mədəniyyət adı altında yaşatmağı bacardı.

Bu il isə Azərbaycanda nadir rast gəlinən və geniş rezonans doğuran bir hadisə baş verdi: Aşura günü ilə bağlı ölkədə fikir ayrılığı yaşandı. Tarix boyu şiə aləmində birlik rəmzi kimi qəbul edilən bu günün qeydində ilk dəfə olaraq ikiləşmə müşahidə olundu, inanclıların bir qismi Aşuranı 5 iyulda, digərləri isə 6 iyulda qeyd etdi. Bu ziddiyyət isə təkcə dini təqvim fərqləri ilə izah olunmur. Müşahidəçilər və ekspertlər məsələnin arxasında daha dərinə gedən siyasi, dini və ideoloji gərginliklərin dayandığını düşünürlər.



Qeyd edək ki, hicri-qəməri təqvimin Ayın hərəkətinə əsaslanması səbəbilə bəzi illərdə İslam ölkələri arasında bayram və matəm günlərinin tarixində cüzi fərqlər ola bilir. İranda dini təqvimin müəyyən edilməsi əsasən Qum, Məşhəd və Tehran dini mərkəzlərindəki ayətullahların ay müşahidələri və çıxardıqları fitvalar əsasında həyata keçirilir. Lakin son illərdə bu mərkəzlər arasında həm elmi, həm də siyasi baxımdan dərin fikir ayrılıqları yarandığı bildirilir. Nəticədə, Aşura kimi mühüm bir günün belə fərqli tarixlərdə qeyd olunması bu ideoloji parçalanmanın bariz təzahürü kimi dəyərləndirilir.

Azərbaycana necə təsir etdi?

Azərbaycan şiələrinin əksəriyyəti İranın dini mərkəzlərinə ideoloji və fiqh baxımından bağlı olduğundan, bu fikir ayrılığı ölkə daxilində də ziddiyyət yaratdı. Bəzi məscidlərdə Aşura mərasimləri 5 iyulda təşkil olunduğu halda, digərlərində mərasimlər bir gün sonraya - 6 iyula təyin edildi. Sosial şəbəkələrdə və dini çevrələrdə bu fərqlilik geniş müzakirələrə səbəb oldu.

**Məsələ ilə bağlı dini mövzular üzrə ekspert Kənan Rövşənoğlu “Yeni Müsavat”a danışıb:** “İnanclılar fərqli günlərdə etmədi, hakimiyyət orqanları bir gün elan etdilər, əhali başqa gün qeyd etdi. Əlbəttə, təqvim fərqi ilk hadisə deyil, az qala hər il Ramazanda təqvim fərqi yaranır. Problem ondadır ki, təqvimə bürokratik müdaxilə və dini mərasimin təşkili ilə bağlı təzyiq siyasəti əhalini narazı salır. Yoxsa ki, təqvim fərqi hər il olur və artıq alışılıb, özü də məzhəb fərqi də mövzu deyil.

Məsələn, bu il Ramazan ayının sonunda Fitr bayramını ölkələr iki fərqli gündə etdilər. Aşura ilə bağlı da daha əvvəldən fərqli təqvimlər olub, amma bu, diqqət cəlb etməyib. Sadəcə, indi QMİ-nin təyin etdiyi Aşura gününün daha əvvəldən bilinən təqvimlə ziddiyyət təşkil etməsi və Aşura günü məclisə gələnlərə qarşı təzyiq narazılıq yaratdı. Azərbaycanda din sahəsində xaotik vəziyyət var, hər il hansısa mərkəzdən gözlənilməz qərarlar verilir. Bu da ajiotaj və süni gərginlik yaradır. Əslində isə ölkədə dini sahədə çox ciddi bir siyasi, ya da ideoloji gərginlik yoxdur. Amma hər il həyata keçirilən bu “sınaqlar” müəyyən gərginliyə səbəb olur".

**Azərbaycan Respublikasının Mediənın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY**

# Kredit faizləri artır, əhalinin borcu çoxalır - çıxış yolu

## Yüksələn kredit faizlərinin iqtisadiyyata təsiri: nələr dəyişir?

**Azərbaycan Mərkəzi Bankının (AMB) açıqladığı son məlumatlara görə, ölkədə kreditlər üzrə orta faiz dərəcəsi 13,65%-ə çatıb. Bu, cəlb olunmuş vəsaitlərin dəyərinin 12,74%-i ötmədiyi ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,91 faiz bəndi çoxdur.**



Faiz dərəcələrində artım həm milli valyutada (14,4%-dən 15,04%-ə qədər), həm də xarici valyutada (5,34%-dən 5,66%-ə) verilən kreditlər üzrə qeydə alınıb. Verilmiş bütün kreditlərin 76%-dən çoxu, yeni 28,4 milyard manatı paytaxtdadır.

Bakıda orta faiz dərəcəsi 12,29% təşkil edir. Ölkənin rayonlarında bu göstərici xeyli yüksəkdir. Ən yüksək göstərici Dağlıq Şirvan iqtisadi rayonunda (19,74%), ən aşağı göstərici isə Naxçıvanda (14,84%) qeydə alınıb.

**Deputat Vüqar Bayramovun** hesablamalarına görə, əmanət faizlərinin artması borc götürülən vəsaitlərin bahalaşmasına səbəb olub: “Nəticədə borcalanların üzərinə düşən yük artır, borcların ödənilməməsi riski artır ki, bu da son nəticədə banklardakı pulun dəyərinə də təsir edir. Yüksək faiz dərəcələri iqtisadiyyatın real sektoruna ziyan vurur. Bahalı kreditlər götürən şirkətlərin istehsal xərclərinə mənfi təsir göstərir və bu, xərclərin artmasına və istehsalın inkişafında çətinliyə məruz qoyur”.

**İqtisadçı ekspert Allahverdi Aydın AYNA.AZ-a söyləyib ki, Azərbaycanda faiz dərəcələrinin artması eyni anda bir neçə fundamental problemlə bağlıdır:** “Vəziyyətə ilk növbədə bank sistemində rəqabətin məhdud olması təsir edir. Kredit bazarının böyük hissəsi bir neçə iri bankın əlində cəmləşib. Tam rəqabətin olmaması dərəcələrin aşağı salınması motivasiyasını azaldır və banklara bahalı kreditlərdən pul qazanmaq üçün rahat şərait yaradır. Digər eyni dərəcədə inandırıcı səbəb inflyasiyanın yüksək səviyyəsidir. Banklar real olaraq gəlirliliyini qorumaq üçün pulun faiz dərəcələrində ucuzlaşma riskini nəzərə almalıdırlar. Xarici valyutada olan kreditlər uzunmüddətli sabitlik baxımından daha az riskli olaraq qalır. Ona görə də aşağı faiz təklif edirlər. Xüsusilə qeyri-müəyyənlik dövründə manat kreditləri daha həssas hesab olunur və bu, onların qiymətində də özünü göstərir. Daxili inflyasiya, bank sektorunda qeyri-kafi rəqabət və milli valyutanın sabitliyi ilə bağlı narahatlıqların birləşməsi kredit xərclərinin artması istiqamətində davamlı tendensiya yaradır”.

**İqtisadçı Rəşad Həsənov isə qeyd edib ki, manatla verilən kreditlərin faizlərinin yüksəlməsinin bir neçə əsas səbəbi var:** “Birincisi, faktiki olaraq bu istiqamətdə xərclər artıb. Çünki bank sektoru cəlb etdiyi vəsaitlərin faizlərini yüksəldib. Depozit faizləri bir il əvvəllə müqayisədə, xüsusən də sistem əhəmiyyətli banklarda 5-6 faiz yüksəlib. Əgər cəlb olunan vəsaitin xərci artırsa, bu, dolayı yolla verilən kreditin də xərcinin artmasına səbəb olur. İkinci faktor isə tələbdir. 2024-cü ilin əvvəlindən etibarən bank sektorunda ciddi şəkildə kreditlərə tələb formalaşıb. Ötən iki il ərzində kreditlər 20 milyarddan 28 milyarda çatıb. Təkcə ötən il bu istiqamətdə 20 faiz böyümə qeydə alınıb. 2025-ci ildə də müvafiq tələbin artım dinamikası müşahidə olunmaqdadır. Üçüncü səbəb isə Mərkəzi Bankın təmərküzləşmə ilə mübarizə tədbirləri çərçivəsində tətbiq etdiyi çərçivələrin sistem əhəmiyyətli banklara münasibətdə sərtləşdirilməsidir. Bu da bankların xərcini artırır və onların faiz dərəcəsinin artmasına gətirib çıxarır. Diqqət etsəniz, ipoteka faizləri ötən ildən kəskin şəkildə bahalaşıb. Əslində orta faiz dərəcəsini aşağı salan əsas amillərdən biri güzəştli şərtlərlə verilən ipoteka kreditləridir. Bu kreditlərin faizlərinin artması da orta kredit faizlərinin artmasına səbəb kimi göstərilə bilər”.

❑ **Nigar HƏSƏNLİ, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
Son səhifə
N 118 (8728) 11 iyul 2025
iyul



# Yağlı qidalar xroniki xəstəliklərin riskini artırır

**Pis yemək vərdişləri həzm sistemində ciddi problemlərə səbəb ola bilər. Bunu qastroenteroloq və terapevt Şota Kalandia deyib.**

Həkimin sözlərinə görə, pəhrizdə lif və su çatışmazlığı bağırsaqların fəaliyyətini poza bilər. "Yağlı qidalar, xüsusən də doymuş yağlar və trans yağları olan qidaların həzmi çətindir və bağırsaqda iltihaba səbəb ola bilər. Bu cür məhsullar həzm sistemində əlavə stres yaradır və xroniki xəstəliklərin riskini artırır".

O, həmçinin şəkər və karbohidratların istehlakını azaltmağı tövsiyə edir, belə ki, bu qidalar patogen bakteriyaların inkişafı üçün rahat mühit yaradır.

Mütəxəssis təkcə həzm sisteminin deyil, bütövlükdə bütün orqanizmin sağlamlığını qorumaq üçün balanslaşdırılmış pəhriz məsləhət görür.

# Musiqi alətlərindən müntəzəm istifadə yaddaşı qorumağa xidmət edir



**Qocalıqda müntəzəm musiqi dərsləri yaddaşı və beyni yaşla bağlı dəyişikliklərdən qorumağa kömək edir.**

Oxu.Az "Imaging Neuroscience" dərgisinə istinadən xəbər verir ki, Yaponiyanın Kioto Universitetinin alimləri belə nəticəyə gəliblər. Təcrübədə təxminən 70 yaşlı insanlar iştirak edib. Beləliklə, məlum olub ki, üç il davamlı musiqi təhsili alan və musiqi alətindən istifadə etməyi mənimsəyən yaşlı adamlar öz həmyaşıdlarından daha yaxşı hafizəyə malikdirlər.

Alimlər həmçinin müəyyən ediblər ki, musiqi alətində ifa etmək beyindəki boz maddənin azalmasının qarşısını alır. Boz maddə onurğalılıların və insanların mərkəzi sinir sisteminin əsas komponentidir. Bu maddə impulsların ötürülməsində və məlumatların işlənməsindən məsul olan neyronları tənzimləyir.

# Arılar vızıltı qabiliyyətlərini itirirlər



**İqlim dəyişikliyi arıların qanadlarının vibrasiya tezliyini və gücünü azaldır. Bu isə onların məşhur "vızıltısını" zəiflədir.**

İsveçin Uppsala Universitetindən olan tədqiqatçılar bununla bağlı xəbərdarlıq ediblər. Onların sözlərinə görə, bunun əsas səbəbi yüksək temperaturdur. Araşdırma zamanı məlum olub ki, istidən və ağır metalların təsirindən arıların əzələləri zəifləyir, bu da onların ünsiyyət qabiliyyətinə və tozlandırma roluna mənfi təsir edir.

Xüsusilə pomidor, qaragilə və doqquzdon kimi bitkilər "vızıltı ilə tozlandırma"ya möhtacdır - bu üsulda arı sinə əzələlərini titrədərək çiçəkdən tozcuqları çıxarır. Bu prosesin pozulması bitkilərin çoxalmasına və biomüxtəlifliyə ciddi zərər vera bilər.

Alimlər arıların səsini ekoloji stres və iqlim dəyişikliyi üçün göstərici (marker) kimi istifadə etməyi planlaşdırırlar.

# Bunları bilirsinizmi?

* Fillərin rəngi əslində boz deyil, qızılı-torpaq rəngidir. Boz görünmələrinin səbəbi palçıqlı suların üzərlərində qurumasıdır.
* Qiymətli daşların çoxu bir neçə elementin birləşməsindən meydana gəlir, yalnız brilyant tamamilə karbondan əmələ gəlir.
* Albert Eynşteyn 9 yaşından sonra tam danışmağa başlayıb. Buna görə də ailəsi onun əqli cəhətdən qüsurlu olduğunu düşünüb.
* "Santa Klaus"un paltarı əslində yaşıl rəngdədir. Ancaq bir kola markası onu qırmızı-ağ olaraq dünyaya tanıdıb.
* Qütb ayıları isti və nəmli mühitdə qaldıqları zaman kürklərinin rəngi yaşıl rəngə çevrilir.
* Alma, soğan və kartofun dadı eynidir. Yalnızca qoxuları fərqlidir. Əslində hamısı şirindir.
* Çox möhkəm asqıranda, qabırğalardan biri qırıla bilər.
* Asqırmağın qarşısını almaq boyunda damarın zədələnməsinə səbəb ola bilər.
* Donuzlar heç vaxt başlarını yuxarı qaldıra bilmir.
* Dünya əhalisinin demək olar ki, 50 faizi telefondan istifadə etmir.
* 1 saat qulaqlıqdan istifadə qulaqdakı mikrobların sayını 700 faiz artırır.
* Barmaq izləri kimi hər insanın özünəməxsus dil izi də var.
* Betxoven son əsərini kar halda bəstələyib.
* Eyfel qülləsinin hazırlanmasında 6400 ton ağırlığında 18.100 ədəd dəmir parçasından istifadə edilib.

# Aeroportlardakı siqnallar yerə yadplanetliləri cəlb edə bilər



**Yer kürəsindəki hava limanlarının və hərbi radarların yaydığı radiosiqnallar 200 işıq ili məsafədən belə aşkarlana bilər. Bu siqnallar texnoloji cəhətdən inkişaf etmiş yadplanetli sivilizasiyalar üçün ağıllı həyatın göstəricisi ola bilər".**

Bu barədə Mançester Universitetinin alimləri apardıqları araşdırmadan sonra elan ediblər. Belə siqnalların mənbələri arasında Çikaqoda Ohara, Nyu-Yorkda Kennedi və Londonda Hitrou kimi iri hava limanlarının radar sistemləri göstərilir.

Xüsusilə hərbi radarların siqnalları daha güclüdür və ağıllı həyatın mövcudluğuna dair daha aydın sübut rolunu oynayır.

Alimlər hesab edirlər ki, əgər Yer bu cür siqnallar yayırsa, bənzər siqnallar digər planetlərdən də gələ bilər və biz onları aşkarlaya bilərik.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.